RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

№ 47 (9792) 2 mart 2025-ci il BAZAR

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR



## Azərbaycanda beynəlxalq idman yarışları ən yüksək standartlara uyğun təşkil edilir

### Prezident İlham Əliyev "Barselona" Futbol Klubunun prezidentini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 1-də "Barselona" Futbol Klubunun prezidenti Xuan Laportanı qəbul edib.**

→ 2

## Birinci vitse-prezident Mehriban Əliyeva Ramazan ayının başlanması münasibətilə paylaşım edib






## Azərbaycanın enerji əməkdaşlığı qitələri aşır

Azərbaycanla Afrika qitəsi ölkələri arasında iqtisadiyyatın bir sıra sahələrində əməkdaşlığın inkişaf etdirilməsi üçün böyük potensial var. Bu potensialdan səmərəli istifadə olunması üçün son dövrlər əməli tədbirlər görülür. Onu da xatırladaq ki, hazırda Azərbaycanın sözügedən qitədə ən geniş iqtisadi əlaqələrə malik olduğu ölkələr Tunis, Cənubi Afrika Respublikası, Misir, Mərakeş, Liviya və Keniyadır. Son vaxtlar Konqo ilə enerji sahəsində əməkdaşlıq üçün addımlar atılıb. Belə ki, SOCAR ilə Konqo Milli Neft Şirkəti arasında "Congolaise de Raffinage" neft emalı zavodunun təkmilləşdirilməsi və genişləndirilməsinə dair sənəd imzalanıb.

Həmçinin Misir şirkətləri ilə əməkdaşlıq istiqamətində işlər aparılır. Prezident İlham Əliyevin keçən ilin iyun ayında Misir Ərəb Respublikasına rəsmi səfəri əməkdaşlıq üçün yeni səhifə açdı. Belə ki, səfər çərçivəsində imzalanan sənədlər sırasında energetika və bərpaolunan enerjiyə aid oanlar da var.

Afrika qitəsi ölkələri ilə neft-qaz sahəsində əməkdaşlıq əsasən xam neftin, neft və neft-qaz kimya məhsullarının, mayeləşdirilmiş təbii qazın (LNG) alqı-satqısı üzərində qurulub. SOCAR-ın Afrika regionu üzrə əməkdaşlıqda maraqlı olduğu ölkələr ilk növbədə Konqo Respublikası, Keniya, Ekvatorial Qvineya, həmçinin Misir, Əlcəzair, Nigeriya, Mərakeş, Liviya, Tunis, Seneqal və CAR-dır. Afrika qitəsində yerləşən bir çox ölkənin təbii minerallarla zəngin olduğu məlumdur. Odur ki, mədənçilik sahəsində də əməkdaşlıq imkanlarının araşdırılması məqsədilə Konqo, Syerra-Leone, Keniya, Niger, Burkina Faso və Mali kimi ölkələrin müvafiq qurumları ilə görüşlər keçirilib və müzakirələr aparılıb.

Bu günlərdə isə SOCAR-ın prezidenti Rövşən Nəcəf Somali Federativ Respublikasının neft və mineral sərvətlər naziri Dahir Shire Mohamed ilə görüşüb. Görüşdə cari il fevralın 12-də dövlətimizin başçısı İlham Əliyevlə Somali Federativ Respublikasının Prezidenti Hasan Şeyx Mahmud arasında keçirilən yüksəksəviyyəli görüşlərin ölkələrimiz arasında müxtəlif istiqamətlərdə, o cümlədən enerji sektorunda əməkdaşlıq üçün əlverişli zəmin yaratdığı xüsusi vurğulanıb.

Söhbət zamanı Somalidə neft-qaz sahəsində insan kapitalının inkişafı məqsədilə somalili tələbələrin BANM-də təhsil almaları, somalili mütəxəssislərin neft-qaz sahəsində bilik və təcrübələrinin artırılması üçün əməkdaşlıq imkanları nəzərdən keçirilib.

→ 5



## Etimad və ehtiram göstərilən dövlət

Prezident İlham Əliyev də xarici siyasətdə BMT ilə əlaqələrə böyük önəm verir. Bu baxımdan Azərbaycanın 2011-ci ildə BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilməsi xarici siyasətimizin mühüm uğuruna çevrildi. Azərbaycanın müstəqil siyasətinin təntənəsi olan bu hadisə respublikamızın sülhün və təhlükəsizliyin təmin edilməsi üzrə qlobal proseslərdə rolunu artırdı, mövqelərini möhkəmləndirdi. BMT TŞ-yə üzvlüyü zamanı Azərbaycan hər zaman beynəlxalq hüququ və ədaləti müdafiə etdi. 2012-2013-cü illərdə rotasiya qaydasında iki dəfə BMT Təhlükəsizlik Şurasına sədrlik edən Azərbaycan üzərinə düşən vəzifələri uğurla yerinə yetirdi, iki il ərzində dünyada sülh və təhlükəsizliyin təmin olunması istiqamətində böyük səylər göstərdi.

Təbii ki, torpaqlarımızın işğaldan azad olunması Prezident İlham Əliyevin BMT tribunasından diqqət yetirdiyi prioritet məsələ idi. İştirak etdiyi BMT Baş Assambleyasının sessiyalarında diqqəti buna yönəldən Prezident İlham Əliyev BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi 4 qətnamənin yerinə yetirilmədiyini bəyan etmiş və onların həyata keçirilməsinin işlək mexanizminin yaradılmasını ümdə məsələ kimi irəli sürmüşdü.

→ 3

## Fransanın bitməyən qərəzi

"Görünür ki, cənab Makron Azərbaycansız yaşaya bilmir. Onda hansısa belə bir maniya yaranıb və bütün günahlarını bizim üstümüzə atmaq istəyir", - deyə yanvarın 7-də yerli televiziya kanallarına müsahibəsində bildirən Prezident İlham Əliyev qeyd etmişdi ki, əslində, bu açıqlama öz acizliyinin etirafıdır.

Dövlətimizin başçısı əlavə etmişdi ki, özlərini böyük dövlət adlandıran bir prezident, sən demə, uzaqda - Qafqaz bölgəsində yerləşən, 10 milyon əhalisi olan ölkənin əməllərindən əziyyət çəkir: "Halbuki bizim bu Fransanın daxili işləri ilə bağlı heç bir işimiz yoxdur. Sadəcə olaraq, qeyri-normal yanaşma, qeyri-adekvat siyasət buna gətirib çıxarıb".

Vaxtilə Qarabağ münaqişəsinin dialoq yolu ilə tənzimlənməsi üçün missiyalandırılan və iki onillikdən artıq müddət ərzində vəzifəsinin öhdəsindən gəlmək üçün heç bir iş görməyən, əksinə məsələnin Ermənistanın xeyrinə dondurulması üçün dəridən-qabıqdan çıxan həmsədr ölkə Fransa Azərbaycanın torpaqlarını işğaldan qurtarmasını, suverenliyini təmin etməsini heç cür həzm edə bilmir. Beş ilə yaxın müddətdir ki, Yelisey sarayı Bakıya qarşı açıq qərəz nümayiş etdirir. Regionda sülh üçün salınan bütün körpüləri yandırmaqla məşğul olan Fransa Cənubi Qafqazda müharibə planlaşdırır.

→ 4





## Ermənistanın ekoloji terroru bütün region üçün təhdiddir

Araşdırmalardan məlum olub ki, "Söyüdlü" yatağının qeyri-qanuni istismarı nəticəsində subalp çəmənliklərindən ibarət zəngin bioloji müxtəlifliyə malik 800 hektardan çox dağ-çəmən ekosistemləri tamamilə dağıdılıb. Oxçuçay Ermənistanın Mehri, Qacaran, Qafan və digər dağ-mədən sənayesinin turş suları, ağır metalları və sair ilə çirkləndirilib. Həmçinin işğal dövründə ermənilər Xonaşen, Qarqarçay, Xaçınçay, İncəsuçay, Coğazçay, Oxçuçay, Tərtərçay çaylarına müxtəlif məişət tullantıları, zavod və mədənlərin çirklənmiş sularını axıdıblar. Bərgüşad və Həkəri çaylarının zəngin və qiymətli balıq sortları erməni qəsbkarları tərəfindən elektrik cərəyanları və partlayıcı maddələrlə məhv edilib. Qarabağın və Şərqi Zəngəzurun şirin su ehtiyatlarının Ermənistanın çirkli sənaye və kənd təsərrüfatı suları ilə mütəmadi olaraq çirkləndirilməsi canlı ekosistemlərə ciddi ziyan vurur. Araz çayı və onun sol qolları Ermənistanın 16-dan çox yaşayış yerinin çirkab suları ilə mütəmadi olaraq çirkləndirilir.

Bunlar təkcə Qarabağ və Şərqi Zəngəzurda ermənilər tərəfindən törədilən ekoloji cinayətlər barədə azsaylı nümunələrdir.

→ 4

# Azərbaycanda beynəlxalq idman yarışları ən yüksək standartlara uyğun təşkil edilir

## Prezident İlham Əliyev "Barselona" Futbol Klubunun prezidentini qəbul edib





*Əvvəli 1-ci səh.*

AZƏRTAC xəbər verir ki, qəbula görə dövlətimizin başçısına minnətdarlığını bildirən Xuan Laporta Azərbaycana ilk dəfə COP29 zamanı səfər etdiyini xatırlayaraq, Bakıdakı inkişaf proseslərinin onda dərin təəssürat yaratdığını dedi, burada əməkdaşlıq üçün böyük potensial gördüyünü və məhz buna görə də qısa müddət ərzində ölkəmizə ikinci dəfə gəldiyini vurğuladı.

Söhbət zamanı Azərbaycanda idman sahəsinə, o cümlədən futbolun inkişafına göstərilən dövlət qayğısına toxunuldu, ölkəmizdə nüfuzlu beynəlxalq idman yarışlarının, həmçinin dünya səviyyəli futbol oyunlarının ən yüksək standartlara uyğun təşkil edildiyi qeyd olundu.

Görüşdə Azərbaycanda "Barselona" futbol akademiyasının yaradılması ilə bağlı sənədin imzalanacağı bildirildi, akademiyanın gələcək fəaliyyətinə dair məsələlər ətrafında fikir mübadiləsi aparıldı, ölkəmizdə uşaq futbolunun inkişafı sahəsində əməkdaşlıq məsələləri müzakirə olundu.

Xuan Laporta Azərbaycan Prezidentinə xatirə hədiyyəsi təqdim etdi.

# AZƏRTAC-ın kollektivi Fəxri xiyabanda Ulu Öndər Heydər Əliyevin məzarını ziyarət edib

**Martın 1-də Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC) 105 illik yubileyi münasibətilə agentliyin rəhbərliyi və əməkdaşları Fəxri xiyabana gələrək, xalqımızın Ümummilli Lideri, müasir müstəqil dövlətimizin memarı və qurucusu Heydər Əliyevin xatirəsini ehtiramla yad edib, məzarı önünə gül dəstələri qoyublar.**

Görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi ehtiramla anılıb, məzarı üzərinə tər güllər düzülüb.

Eyni zamanda tanınmış dövlət xadimi Əziz Əliyevin və görkəmli həkim-alim Tamerlan Əliyevin məzarları üzərinə gül dəstələri qoyulub.



Qeyd edək ki, 1920-ci il martın 1-də Azərbaycan Xalq Cümhuriyyəti hökuməti tərəfindən əsası qoyulan AZƏRTAC ilk milli xəbər agentliyi kimi mürəkkəb, çətin və şərəfli yol keçib. Həmin il martın 2-də "Azərbaycan" qəzetində AzərTac imzası ilə ilk xəbərlər dərc olunub. Cümhuriyyət dövrünün yadigarı olan AZƏRTAC müstəqil xəbər mənbəyi kimi cəmi 58 gün yaşaya bilib.

Azərbaycan dövlət müstəqilliyini bərpa edəndən sonra agentliyin tarixi adı özünə qaytarılıb - 1995-ci il martın 3-dən Nazirlər Kabineti yanında Dövlət Teleqraf Agentliyi, 2000-ci il yanvarın 17-dən isə Azərbaycan Dövlət Teleqraf Agentliyi adlandırılmağa başlayıb. Prezident İlham Əliyevin 2015-ci il fevralın 26-da imzaladığı Sərəncamla isə Azərbaycan Dövlət Teleqraf Agentliyinin adı dəyişdirilərək Azərbaycan Dövlət İnformasiya Agentliyi (AZƏRTAC) adlandırılıb.

Beynəlxalq və regional media təşkilatlarının üzvü olan AZƏRTAC son illər 50-yə yaxın xarici xəbər agentliyi ilə əməkdaşlıq müqaviləsi imzalayıb. Agentlik hazırda səkkiz dildə - Azərbaycan, ingilis, rus, alman, fransız, ərəb, Çin və ispan dillərində xəbərlər, eləcə də regionda ilk dəfə olaraq beş dildə videoxəbərlər yayır.

# Sülh təhlükə altındadır

## ABŞ və Ukrayna prezidentlərinin görüşü mübahisəli keçib

**Fevralın 28-də Ukrayna prezidenti Volodimir Zelenski ABŞ-yə rəsmi səfər edib. Ağ Evdə o, dövlət başçısı Donald Trampla görüşüb, daha əvvəl isə amerikalı senatorlarla danışıqlar aparıb.**

Prezidentlərin Ağ Evin qərb qanadının foyesində jurnalistlərlə görüşü zamanı V.Zelenski ABŞ-nin vitse-prezidenti Cey Di Venslə mübahisəyə girib və buna Donald Tramp müdaxilə edib.

Prezident Volodimir Zelenski Ukraynanın təhlükəsizlik təminatlarından danışıb. O vurğulayıb ki, zəmanət olmadan Kiyev atəşkəslə razılaşmayacaq. Bundan əlavə, dövlət başçısı müharibənin dayandırılması üçün danışıqlarda kimin iştirak etməli olduğunu aydın şəkildə ifadə edib. V.Zelenski vurğulayıb ki, bu, ABŞ və Rusiya arasında deyil, Rusiya ilə Ukrayna arasında müharibədir.

Bundan sonra Volodimir Zelenski Ağ Evi erkən tərk edib. Əvvəllər elan olunduğu kimi mineral ehtiyatlar sazişinin imzalanması baş tutmayıb.

Ağ Evdən çıxarkən Tramp Zelenski ilə Oval kabinetdə keçirdiyi müzakirəni mətbuat mənsublarına danışıb. O, Zelenski ilə görüşün o qədər də yaxşı keçmədiyini deyib: "O, çox sərt danışdı. Biz sülh axtarırıq, barışmaq istəməyəni axtarmırıq. Mən sülh axtarıram. Biz on illik müharibəyə girib oyun oynamaq istəmirik".

Zelenskinin sülh sazişi bağlamaq istəyi ilə bağlı şübhələrinin olduğunu izah edən Tramp əlavə edib: "Mən indi sülh istəyirəm. Prezident Putin də bunu istəyəcək. Bu adam (Zelenski) bizim mübarizəmizi davam etdirməyimizi istəyir".

Trampın sözlərinə görə, Zelenski barışmaq istəyən adama bənzəmir: "Zelenski dərhal danışıqlar masasına qayıtmaq istəyir, amma buna icazə verə bilmərəm. Onlar atəşkəs bağlamalıdırlar. Atəşkəs dərhal gələ bilər. Müharibəyə son qoymaq istəyirsənsə, müəyyən bir müddəti əhatə edən müqavilə imzalayırsan. Bu, vaxt tələb edir. Mən hər şeyin indi bitməsini istəyirəm. O, qəfildən böyük adam oldu. Çünki ABŞ onun tərəfindədir. Ya buna son qoyuruq, ya da döyüşməsinə icazə veririk. Mübarizə aparsa, yaxşı olmayacaq, çünki bizsiz o, qalib gələ bilməyəcək".

Ukrayna prezidenti Volodimir Zelenski isə ABŞ prezidenti Donald Trampla görüşündən sonra Fox News telekanalına müsahibəsində Amerika xalqına göstərdikləri köməyə görə minnətdar olduğunu bildirib. "Siz bizə sağ qalmağımıza kömək etdiniz", - deyən dövlət başçısı fevralın 28-də Ağ Evdə baş verən hadisələrə, mineral ehtiyatlar və təhlükəsizlik təminatlarına dair sazişin taleyinə münasibət bildirib: "Tramp başa düşməlidir ki, heç kim müharibəni ukraynalılar qədər bitirmək istəmir. Düşünürəm ki, bu mübahisə hər iki tərəf üçün yaxşı deyil. Mən açığam. Amma ukraynalıların bizi öldürən ruslara münasibətini dəyişə bilmərəm. Onlar bizim düşmənlərimizdir!"



O, ABŞ-nin vitse-prezidenti C.D.Venslə mübahisənin niyə yarandığını da izah edib. Zelenski qeyd edib ki, o, dəfələrlə siyasətçilərdən ölən ukraynalılar və düşmən tərəfindən ələ keçirilən ərazilər barədə danışarkən düzgün olmağı, səsləndirdikləri rəqəmlərə və sözlərə diqqətlə yanaşmağı xahiş edib. Mübahisə də bundan yaranıb.

Onun sözlərinə görə, Ukrayna sülh istəyir və istənilən halda danışıqlar baş tutacaq. Bununla belə, söhbət ədalətli və davamlı sülhdən gedir və Ukrayna danışıqlar masası arxasında güclü olmalıdır.

Zelenski həmçinin vurğulayıb ki, mineral ehtiyatlar üzrə saziş imzalanmalıdır və Ukrayna buna hazırdır. Onun fikrincə, "bu, təhlükəsizlik təminatlarına doğru ilk addım olacaq. ABŞ bu müqavilənin nə vaxt imzalanmasında maraqlıdır, lakin bunun nə vaxt baş verəcəyi Vaşinqtondan asılıdır. Amma biz aydınlaşdırmaq istəyirik ki, imzalanandan sonra növbəti addımlar necə olacaq."

Təhlükəsizlik zəmanətlərindən danışan Zelenski ən sürətli yolun NATO olduğunu vurğulayıb: "Şimali Alyans olmasa, onda gəlin NATO-nu Ukraynada quraq. Avropa hazırdır. Avropaya baxın, o güclüdür və daha da güclənir. Amma ABŞ kimi müttəfiqinin olmasını istəyir".

Dövlət başçısı Trampın dərhal atəşkəslə bağlı çağırışlarına münasibət bildirib: "Mən əsgərlərimizə və mülki vətəndaşlarımıza hörmət edirəm. Mən sadəcə olaraq "dur" deyə bilmərəm... Heç kim dayanmayacaq, çünki hamı Putinin sabah qayıdacağından qorxur".

Zelenski Trampla mübahisədən sonra senator Lidsi Qremin istefa çağırışını cavablandırarkən "bu qərarı yalnız Ukrayna xalqı verə bilər", - deyə vurğulayıb.

O, Trampdan üzr istəmək istəyib-istəməyəcəyi barədə suala da cavab verib: "Mən pis heç nə etmədiyimizi düşünürəm. Demokratiyaya və mediaya hörmətlə yanaşaraq, hesab edirəm ki, biz Ukraynanın mövqeyini başa düşməliyik".

Donald Tramp Rusiya prezidenti Vladimir Putinlə "ehtiyatlı" davranır və Kreml liderini təhqir edə biləcək ritorikadan çəkinir. Bunu isə ABŞ dövlət katibi Marko Rubio CNN telekanalına müsahibəsində deyib. O, həmçinin əlavə edib ki, Ağ Ev Trampla danışıqlar zamanı "fiaskoya" görə Ukrayna prezidenti Volodimir Zelenskidən üzrxahlıq gözləyir və ABŞ prezident administrasiyası indi Ukrayna prezidentinin sülh istəməsinə şübhə edir.

Rubio Trampın Putinə simpatiyasını Amerika prezidentinin qısa bir vaxtda müharibəni bitirmək istəyi ilə izah edib. Dövlət katibinin sözlərinə görə, ABŞ lideri ictimai "hücumlar" etmək və Putini təhqir etmək istəmir, çünki onun fikrincə, bu, danışıqlar prosesinə mane ola bilər.

Rubionun fikrincə, bəlkə də Zelenski sülh razılaşmasını istəmir. O deyir ki, bunu istəyir, amma ola bilsin ki, istəmir. Və sülh səylərinin bu aktiv şəkildə zədələnməsi bu görüşdən əvvəl onunla ünsiyyətdə olan hər kəsi dərindən məyus edir.

Rubio həmçinin bildirib ki, Amerika tərəfi ABŞ və Ukrayna prezidentləri arasında görüşə vaxt itirib: "Donald Tramp deyib ki, Volodimir Zelenski sülhə hazır olanda qayıtsın".

Son məlumata görə, Tramp bildirib ki, Zelenski danışıqların davam etməsi üçün sülh istədiyini deməli və Rusiya prezidenti Putini tənqid etməyi dayandırmalıdır.

Bu arada Böyük Britaniyanın baş naziri Kir Starmer Zelenskini dəstəkləyib və onu digər Avropa liderləri ilə birlikdə Londonda gözlədiyini bildirib.

***Rizvan CƏFƏROV, "Azərbaycan"***

# Dövlətə sədaqət, xalqa xidmət



**Peşəkar dövlət xadimi, ləyaqətli insan Artur Rasi-zadənin həyat və fəaliyyəti böyük bir məktəbdir. Adi mühəndislikdən ölkənin Baş naziri vəzifəsinədək şərəfli yol keçmiş A.Rasi-zadə 1957-ci ildə Azərbaycan Sənaye İnstitutunu bitirdikdən sonra əmək fəaliyyətinə Azərbaycan Neft Maşınqayırması ETİ "AzİNMAŞ"da mühəndis vəzifəsində başlamış, sonradan böyük mühəndis, layihənin baş mühəndisi, şöbə müdiri, elmi işlər üzrə direktor müavini vəzifələrində işləmişdir.**

1973-1975-ci illərdə "Azneftsənayemaş" Birliyində baş mühəndis, 1975-1977-ci illərdə "İttifaqneftmaş" EİB rəisinin birinci müavini-baş mühəndis, 1977-1978-ci illərdə "AzİNMAŞ" Neft Maşınqayırması ETİ-nin direktoru olmuşdur. 1978-1981-ci illərdə Azərbaycan SSR Dövlət Plan Komitəsi sədrinin müavini, 1981-1986-cı illərdə AKP MK-da Maşınqayırma şöbəsinin müdiri, 1986-1992-ci illərdə Azərbaycan Respublikası Nazirlər Soveti Sədrinin birinci müavini (sonradan Azərbaycan Respublikası Baş nazirinin birinci müavini) vəzifələrində çalışmış Artur Rasi-zadə 1992-1994-cü illərdə İqtisadi İslahatlar Fondunda, 1994-cü ildə "DEKA-B" şirkətində, 1994-1996-cı illərdə isə yenə də İqtisadi İslahatlar Fondunda məsləhətçi vəzifəsində işləmişdir.

1996-cı ildə Azərbaycan Respublikası Prezidentinin iqtisadi məsələlər üzrə köməkçisi təyin edilən A.Rasi-zadə həmin ilin may ayından Azərbaycan Respublikası Baş nazirinin birinci müavini, 1996-2003-cü illərdə Baş nazir, 2003-cü ilin avqust-noyabr aylarında Baş nazirin birinci müavini vəzifələrində çalışmış, 2003-cü ilin noyabr ayından 2018-ci il aprelin 21-dək yenidən Azərbaycan Respublikasının Baş naziri olmuşdur.

Ulu Öndər Heydər Əliyev Artur Rasi-zadəni peşəkar, bilikli, prinsipial mövqeyi olan bir insan kimi həmişə yüksək qiymətləndirmişdir. Bu prinsipial mövqe bütün məsələlərdə özünü göstərmişdir. Artur Rasi-zadənin 2003-2018-ci illərdə Azərbaycan Respublikasının Baş naziri vəzifəsində çalışdığı dövr ölkə iqtisadiyyatı, ordu quruculuğu, sənaye, kənd təsərrüfatı üçün ən sürətli inkişaf illəri olmuşdur. Onun rəhbərliyi ilə Nazirlər Kabineti Prezidentin tapşırıqlarını layiqincə yerinə yetirmişdir.

Artur Rasi-zadənin fəaliyyəti həm Ulu Öndər Heydər Əliyev, həm də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən daim yüksək qiymətləndirilmişdir. 20 fevral 2025-ci ildə Prezident İlham Əliyev Artur Rasi-zadəni Azərbaycan Respublikasının ictimai-siyasi həyatında uzunmüddətli səmərəli fəaliyyətinə və dövlət qulluğunda müstəsna xidmətlərinə görə "Heydər Əliyev" ordeni ilə təltif etmişdir. Prezident Artur müəllimi qəbul edərək "Heydər Əliyev" ordenini ona şəxsən təqdim etmişdir. Bundan əlavə, Artur Rasi-zadə Azərbaycanın iqtisadi inkişafındakı böyük xidmətlərinə görə "İstiqlal" ordeni (2005-ci il), Azərbaycan Respublikasının sosial-iqtisadi inkişafı üçün verdiyi böyük töhfələrə görə "Şərəf" ordeni (2010-cu il), Azərbaycan Respublikasının iqtisadi, sosial və mədəni inkişafında töhfələrinə görə "Şöhrət" ordeni (2015-ci il), Belarusun "Xalqlar dostluğu" ordeni (2015-ci il), 1-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni (2020-ci il), Fransanın ən yüksək hərbi və mülki dövlət mükafatı olan "Fəxri legion" ordeni, keçmiş SSRİ-nin "Şərəf nişanı" ordeni ilə təltif edilmiş, SSRİ Dövlət mükafatı laureatı adına layiq görülmüşdür.

Alicənab, olduqca sadə, sədaqətli, təvazökar, mədəni, savadlı və peşəkar insan olan Artur Rasi-zadə ölkəsini, xalqını, dövlətini qəlbən sevən, dəqiqliyi və konkretliliyi ilə fərqlənən, yüksək idarəetmə qabiliyyətinə malik, operativ qərarlar qəbul etməyi bacaran dövlət xadimidir. O, kadrları seçərkən dövlətçiliyə sədaqətə, biliyə, peşəkarlığa və təcrübəyə üstünlük verərdi. Baş nazir bu keyfiyyətləri ilə Nazirlər Kabineti Aparatında münbit və sağlam mühit yarada bilmişdi.

Artur Rasi-zadə işlədiyi dövrdə keçmiş Ermənistan-Azərbaycan münaqişəsi məsələlərini, qaçqın və məcburi köçkünlərin problemlərinin həllini daim diqqət mərkəzində saxlayırdı. Keçmiş qaçqınların və məcburi köçkünlərin sosial müdafiəsi və mənzil-məişət şəraitlərinin yaxşılaşdırılması istiqamətində hökumətin üzərinə düşən öhdəliklərin operativ yerinə yetirilməsinə ciddi nəzarət edirdi.

Baş nazirin yanında keçirilən çoxsaylı yüksəksəviyyəli görüşlərdə iştirak edərkən onun nə qədər cəsarətli, prinsipial, xalqını, dövlətini sevdiyinin, əsl Azərbaycan vətəndaşı olmasına dəfələrlə şahidlik etmişəm. Baş nazir tapşırmışdı ki, bir qayda olaraq beynəlxalq təşkilatların yüksəksəviyyəli nümayəndələri ilə keçirilən bütün görüşlərdə Xocalı soyqırımını və xalqımıza qarşı erməni vandalizmini və vəhşiliklərini əks etdirən fotoşəkillər, videoyazılar, mümkün olan bütün sübutlar nümayiş etdirilsin, qonaqlara təqdim olunsun. O, ermənilərin, erməni ordusunun işğal olunmuş ərazilərimizdə törətdikləri vəhşilikləri, azərbaycanlılara verdikləri işgəncələri, doğma yurd-yuvalarından zorla qovulmuş qaçqınların və didərgin düşmüş məcburi köçkünlərin acınacaqlı və dözülməz vəziyyətini qonaqların diqqətinə çatdırarkən çox qətiyyətlə bildirirdi ki, sülh danışıqları heç bir nəticə verməsə, biz iqtisadi gücümüzü və ölkəmizin müdafiə potensialını gücləndirməklə öz torpaqlarımızı hərbi yolla işğaldan qurtaracaq, ərazi bütövlüyümüzü və suverenliyimizi bərpa edəcəyik.

Belə də oldu. 2016-cı ildə başlayan Aprel döyüşləri, 2020-ci ildə 44 günlük Vətən müharibəsi və 2023-cü ilin sentyabrında bir günlük antiterror əməliyyatları nəticəsində Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında bütün torpaqlarımız işğaldan azad olundu. "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı" çərçivəsində bu gün Qarabağ və Şərqi Zəngəzurda genişmiqyaslı abadlıq, tikinti və quruculuq işləri gedir, bütün infrastrukturu ilə birlikdə yeni şəhərlər və qəsəbələr salınır, keçmiş məcburi köçkünlər öz doğma yurdlarına qayıdırlar. Bu, Artur Rasi-zadənin ən böyük arzusu idi və nə yaxşı ki, o, bu arzusuna qovuşur.

Artur Rasi-zadə 26 fevral doğum günündə Xocalı faciəsinə görə heç kimə onu təbrik etməyə icazə verməzdi, hətta ailəsinə də. Söz düşmüşkən bildirək ki, Artur Rasi-zadə həm də nümunəvi ailə başçısıdır. Qızı Nailə xanımı, onun ailə üzvlərini tanıyanlar onların necə səmimi, sadə, mehriban insan olduqlarını yaxşı bilirlər.

Artur Rasi-zadə həmişə deyir ki, Ulu Öndər Heydər Əliyevin şagirdidir. Amma bu gün dövlət və hökumət qurumlarında yüksək vəzifə tutan, xalqa və vətənə ləyaqətlə qulluq edənlər arasında Artur müəllimin özünün də şagirdləri az deyil. Sözsüz ki, bu, A.Rasi-zadənin 90 illik həyatında əldə etdiyi ən dəyərli qazancıdır.

***Qurban SADIQOV, Nazirlər Kabinetinin sektor müdiri***

# Azərbaycanın xarici siyasətinin uğurları



## Bolqarıstan Azərbaycanın etibarlı avropalı tərəfdaşıdır

**Həmişə qoca qitədən söhbət düşəndə gözlərimiz önündə mühüm bir tərəfdaş kimi canlanan ölkə dost Bolqarıstan olur. Bu ölkə və onun sakinləri özünəməxsus bir tarixə, mədəniyyətə malik olmaqla yanaşı, qonşu və uzaq ölkələrə bəslədikləri səmimi və xeyirxah münasibətilə də fərqlənirlər.**

Tarixçi gözü ilə baxsaq, görərik ki, Bolqarıstanın adına indiki formada ilk dəfə Bizans qaynaqlarında rast gəlinib. Azərbaycan kimi bolqar xalqı da tarixboyu öz azadlıq və istiqlaliyyəti uğrunda savaşlara qatılmış və bu sınaqlardan üzüağ çıxmışdır. O həm də heç vaxt köləsi olmayan azsaylı ölkələrdən biridir. Bolqar torpaqlarında aparılan arxeoloji qazıntılar da keçmişin zəngin mirasını üzə çıxarmaqdadır. Burada aşkar edilmiş dünyanın ən qədim qızıl dəfinəsi (6 min il yaşı olan 3 mindən çox qızıl əşya) numizmatika ilə məşğul olanların da böyük sevincinə səbəb olmuşdur. Heç də təsadüfi deyil ki, Bolqarıstan qiymətli arxeoloji abidələrin sayına görə Avropada Yunanıstan və İtaliyadan sonra üçüncü yeri tutur.

Hazırda Dünya Bankı Bolqarıstanı orta səviyyədən yuxarı gəlirə malik ölkə kimi təsnif edir. Onun iqtisadiyyatı tikinti, dağ-mədən sənayesi, xidmətlər (o cümlədən turizm) və kənd təsərrüfatına əsaslanır. Bu ölkənin cəlbediciliyi həm də onun gözoxşayan narın qumlu və təmiz, mavi dəniz çimərlikləri olan toxunulmaz sahil zolağı kimi istirahət yerlərinə sahib olmasıdır. Mühacirlərin əksəriyyətinin etirafına görə, Bolqarıstanda yaşamaq üçün ən yaxşı yer Burqas şəhəridir. Paytaxt Sofiya isə daha çox iş adamları və səhmdarlar tərəfindən yaşamaq və peşəkar inkişaf üçün seçilir.

Son illər dünyada gedən iqtisadi təlatümlərə baxmayaraq, ölkədə qabaqlayıcı tədbirlər görülür. Həmçinin bolqar şirkətlərinin dünya bazarına təqdim və təklif etdikləri məhsullar özünün rəqabət qabiliyyətinə görə üstün mövqeyini qoruyub saxlayır. Bu cəhətdən 2024-cü ildə Bolqarıstan iqtisadiyyatı sabitliyə nail olmuş, ölkənin gəlirləri yüksəlmiş və inflyasiya azalmışdır. Onun quru yolla Şengenə qəbul edilməsi isə bir sıra göstəricilərə görə yaxşı nəticə hesab olunur.

Bolqarıstanda kənd təsərrüfatının əsas sahələri texniki bitkilər və taxıl istehsalıdır, xırda əmtəə istehsalı isə tərəvəzçilik, bağçılıq və heyvandarlıqda üstünlük təşkil edir. Onun əhalisi 7 milyon nəfərdən çoxdur. Kənd təsərrüfatı Bolqarıstanın milli gəlirinin ondabirindən azını təşkil edir. Əkin sahələrinin demək olar ki, beşdəüçündə taxıl bitkiləri becərilir. Buğda əhəmiyyətli yer tutsa da, qarğıdalı, arpa, çovdar, yulaf, soya və düyü də becərilir. Sənayenin əsas sahələri metal və metal məmulatlarının istehsalı, yeyinti, tütün və həmçinin enerji sənayesidir.

Sovetlər birliyinin süqutundan sonra Azərbaycanın dövlət müstəqilliyini bərpa etməsi və Cənubi Qafqazda strateji mövqeyinin möhkəmlənməsi eyni zamanda onu Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında aparıcı dövlətə çevirdi. Cənub-Şərqi Avropada yerləşən, Avropa İttifaqının və Şimali Atlantika Müqaviləsi Təşkilatının (NATO) üzvü olan Bolqarıstan özünün xarici siyasət kursunda Azərbaycan ilə münasibətlərə xüsusi önəm verir.

Tarixin müxtəlif çağlarında bu iki xalqın bir-birilə mədəni təması, ticarət əlaqəsi olub. Hətta XX əsrin əvvəllərində Ukraynadan bir çox bolqar ailəsi Azərbaycana pənah gətirmiş və gözəl tarixi Gəncə şəhərində məskunlaşaraq özünü rahat, məmnun hiss etmişlər.

SSRİ-nin çöküşündən sonra bu iki xalq arasında münasibətlərin tarixində keyfiyyətcə yeni səhifə açıldı. 1992-ci ilin yanvarında Bolqarıstan Azərbaycanın dövlət müstəqilliyinin bərpasını rəsmən tanıdı və həmin ilin iyununda iki ölkə arasında diplomatik münasibətlər quruldu. Ümummilli Lider Heydər Əliyev 1995-ci ildə Bolqarıstan Respublikasının Prezidenti Jelyu Jelevin dəvətilə Sofiyaya rəsmi səfər etdi. Bu səfər zamanı dostluq və əməkdaşlıq haqqında sazişin imzalanması iki ölkə arasında münasibətlərin yüksələn xətlə inkişafının başlanğıcını qoydu.

1999-cu ilin dekabrında Bolqarıstanın Azərbaycanda, 2005-ci ilin fevralında isə Azərbaycanın Bolqarıstanda səfirliyi öz fəaliyyətinə başladı. Həmin dövrdən etibarən iki ölkə arasında sıx əlaqələr quruldu. Xüsusi vurğulamaq lazımdır ki, 2015-ci ildə Strateji tərəfdaşlıq haqqında birgə Bəyannamənin imzalanması iki ölkə arasındakı münasibətlərdə keyfiyyətcə yeni mərhələnin başlanğıcı oldu. Tezliklə həmçinin xarici işlər nazirlərinin sədrliyi ilə strateji dialoq təsis olundu.

Mərkəzi və Şərqi Avropa ölkələri, o cümlədən Bolqarıstanla ikitərəfli və çoxtərəfli əməkdaşlığın inkişaf etdirilməsi hazırda ölkəmizin xarici siyasətinin vacib istiqamətlərindən biridir. Azərbaycan tərəfi Bolqarıstanın Avropa qitəsində, xüsusilə Balkanların mərkəzində yerləşən strateji mövqeyini yaxşı dəyərləndirir. Bolqarıstan da Azərbaycanın Cənubi Qafqaz regionundakı strateji mövqeyinə yüksək önəm verir.

Hazırda Azərbaycan ilə Bolqarıstan arasında möhkəm müqavilə-hüquq bazası yaradılıb, investisiyaların qorunması, ikiqat vergitutmanın aradan qaldırılması, nəqliyyat, gömrük, turizm və digər sahələrdə 80-dən çox sənəd imzalanıb. Bolqarıstan böyük Avropa bazarına giriş qapısı kimi Azərbaycan üçün strateji rol oynadığı kimi, Azərbaycan da Bolqarıstan üçün geniş Asiya bazarına giriş üçün etibarlı körpü rolunu oynayır.

İki ölkə arasında siyasi müstəvidə münasibətlərin yüksək səviyyədə inkişafı həyatın digər sahələrində əlaqələrə də müsbət təsir göstərir. Dövlət və hökumət başçılarının tez-tez qarşılıqlı səfərləri və müxtəlif beynəlxalq forumlar, zirvə toplantıları zamanı keçirilən görüşlər siyasi münasibətlərə yeni təkan verir. Bu mənada ötən il mayın 8-də Bolqarıstan Prezidenti Rumen Radevin Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dəvəti ilə ölkəmizə rəsmi səfəri qarşılıqlı münasibətlərin inkişafına müsbət təsir göstərdi. Prezident İlham Əliyev bildirdi ki, iki ölkə arasında iqtisadi, enerji, nəqliyyat sektorları sahəsində əməkdaşlıq çox yaxşı səviyyədədir.

Hər iki ölkənin parlament sədri və parlament nümayəndə heyəti arasında görüşlərin keçirilməsi də təqdirəlayiq haldır və bu da öz müsbət bəhrəsini verir. Həmçinin ayrı-ayrı parlamentarilərin, dostluq qruplarının görüşləri də siyasi münasibətlərin yaxşı səviyyədə olduğunun göstəricisidir.

Hər iki ölkənin müxtəlif dövlət və hökumət qurumları arasında əməkdaşlıq memorandumları da imzalanmışdır. Azərbaycanın Kənd Təsərrüfatı Nazirliyi ilə Bolqarıstanın Kənd Təsərrüfatı və Ərzaq Nazirliyi arasında kənd təsərrüfatı sahəsində əməkdaşlıq haqqında imzalanmış Anlaşma Memorandumu da bu qəbildəndir.

Davamlı olaraq İqtisadi əməkdaşlıq üzrə hökumətlərarası komissiyanın iclaslarının keçirilməsi ortaya çıxan hər hansı bir problemin vaxtında öz həllini tapması ilə yanaşı, yeni ideya və təkliflərin də reallaşmasına zəmin yaradır. Bolqarıstan-Azərbaycan biznes-forumlarının davamlı şəkildə keçirilməsinin də müsbət nəticələri olur.

Hazırda iki ölkə arasında ticarət, nəqliyyat, xüsusilə yük daşımaları, sərmayələr, yüksək texnologiyalar, turizm və digər sahələrdə əməkdaşlığın inkişafı üçün geniş perspektivlər mövcuddur. Azərbaycan-Bolqarıstan əməkdaşlığında enerji sektoru prioritet əhəmiyyət kəsb edir. Bolqarıstanın Sofiya şəhərində Azərbaycan Dövlət Neft Şirkətinin (SOCAR) ofisi fəaliyyət göstərir.

Cənubi Qafqazın aparıcı ölkəsi olan Azərbaycan enerji məsələlərində Bolqarıstanın əsas tərəfdaşıdır. Hər iki tərəf bu sahədə yüksək fəaliyyət göstərir. Keçən il "yaşıl enerji" layihəsi üzərində hər iki ölkənin nümayəndə heyəti sıx şəkildə işləmişlər. Bu günə qədər iki tərəfin də maraqlarına uyğun mükəmməl bir əməkdaşlıq qurulmuşdur. Azərbaycan tərəfi 2023-cü ildə Bolqarıstan bazarına 1 milyard 250 milyon kubmetr qaz nəql etmişdir. Bu göstərici 2024-cü ildə 1,5 milyard kubmetrə çatıb.

Enerji sahəsində uğurlu əməkdaşlıq ticarət dövriyyəmizin xeyli artmasına səbəb olub. Təkcə 2024-cü ilin birinci rübündə qarşılıqlı ticarət dövriyyəsi təxminən dörd dəfə artaraq 153 milyon dollara çatıb, ixracat isə dörd dəfədən çox artaraq 146 milyon dollar təşkil edib. Bolqarıstan hazırda Azərbaycanın TOP 10 ixrac bazarı sırasındadır. Keçən il ölkəmizin xarici ticarət dövriyyəsinin 1,5 faizi Bolqarıstanla aparılmış ticarət əməliyyatlarının payına düşüb. 2024-cü ilin yanvar-may aylarında qarşılıqlı ticarət dövriyyəsinin həcmi 78 faizdən çox artaraq 240 mln. dollardan çox olub.

Son zamanlar Azərbaycanda sənaye, tikinti, ticarət və xidmət sahələrində Bolqarıstan şirkətlərinin fəaliyyəti daha da artıb. Hazırda Azərbaycanda 15 bolqar şirkəti fəaliyyət göstərir. 2024-cü ilin mayında Bakıda İxracın və İnvestisiyaların Təşviqi Agentliyinin - AZPROMO və Bolqarıstan-Azərbaycan Ticarət və Sənaye Palatasının birgə təşkilatçılığı ilə Azərbaycan və Bolqarıstan işgüzar dairələrinin görüşü keçirilib, əməkdaşlığın yeni sahələri və imkanları müəyyən edilib.

Xalq dplomatiyası, mədəni əlaqələr sahəsində atılan addımlar da iki xalqın daha da yaxınlaşmasında mühüm rol oynayır. Xüsusilə ölkələrarası münasibətlərdə müsbət bəhrəsini verən "qardaşlaşmış şəhərlər" təcrübəsi də təqdir olunası haldır. Bu mənada Qabrovo ilə Şəki, Varna ilə Gəncə, Burqas ilə Sumqayıt və Veliko Tırnovo ilə Naxçıvan arasında qardaşlaşmış şəhər münasibətlərinin qurulması alqışlanmalı haldır.

İki ölkə arasında turizm əlaqələri də durmadan inkişaf edir. Bakı ilə Sofiya arasında 2024-cü ilin payızından etibarən fəaliyyət göstərən yeni birbaşa aviareysin əhəmiyyəti olduqca böyükdür. Bu aviareys biznes mühitinə və xalqımıza daha çox qarşılıqlı əlaqə imkanları təqdim edir və eyni zamanda turizm sektoruna böyük töhfə verir.

Ölkələr arasında ədəbi əlaqələrin inkişafı da ürəkaçandır. Azərbaycan şairi Nizami Gəncəvinin şeirləri hələ XIX əsrdə bolqar dilinə tərcümə edilərək nəşr olunmuşdur. Həmçinin bolqar ədəbiyyatının klassikləri İvan Vazov, Xristo Botev, Emiliyan Stanev və başqalarının əsərləri də Azərbaycan dilinə tərcümə edilib.

Son zamanlar Azərbaycan ilə Bolqarıstan arasında elm və təhsil sahəsində də geniş əlaqələr inkişaf edir. Bakı Dövlət Universitetinin Tarix fakültəsinin Slavyan ölkələri tarixi kafedrasında Bolqarıstan tarixi də tədris olunur. Bakı Slavyan Universitetində bolqar dili, tarixi, mədəniyyəti tədris edilir. Orada həmçinin bolqar dili və mədəniyyəti mərkəzi fəaliyyət göstərir. Eyni zamanda Sofiya Universitetində Azərbaycan dili və mədəniyyəti mərkəzi fəaliyyət göstərir.

Böyük inamla qeyd etmək olar ki, enerji nəqli, logistika və ticarət sahələrində genişmiqyaslı layihələrin həyata keçirilməsi Cənubi Qafqaz, Avropa və Qara dəniz regionlarının sabitliyi və iqtisadi inkişafı üçün atılan mühüm addımlardır. Bu, ümumilikdə Avropanın enerji təhlükəsizliyinin gücləndirilməsi üçün böyük əhəmiyyət kəsb edir. Əminliklə vurğulamaq olar ki, Bolqarıstan və Azərbaycan bir-birini Cənubi Qafqazda və Cənub-Şərqi Avropada strateji və etibarlı tərəfdaş hesab edirlər. Təkcə Azərbaycan və Bolqarıstan deyil, digər ölkələr də bu əməkdaşlığın faydasından bəhrələnirlər.

***Atamoğlan MƏMMƏDLİ,***
***BDU-nun dosenti***

### Azərbaycanın BMT-yə üzv qəbul olunmasından 33 il keçir

## Etimad və ehtiram göstərilən dövlət



**Bu gün Azərbaycanın BMT-yə üzv qəbul olunmasının 33-cü ili tamam olur. BMT Baş Assambleyasının 1992-ci il martın 2-də keçirilən 46-cı sessiyasının 82-ci plenar iclasında respulikamızın bu təşkilatın üzvlüyünə qəbul edilməsi barədə qətnamə qəbul olunub.**

Qeyd edək ki, BMT-nin məqsədlərinə beynəlxalq sülh və təhlükəsizliyin qorunması, ölkələr arasında dostluq münasibətlərinin inkişaf etdirilməsi, iqtisadi, sosial, mədəni və humanitar xarakterli problemlərin həlli istiqamətində beynəlxalq əməkdaşlığın həyata keçirilməsi daxildir. BMT-yə daxil olarkən Azərbaycan öz tarixinin çətin dövrünü yaşayırdı. Bundan cəmi bir neçə gün əvvəl ermənilər Xocalıda xalqımıza qarşı soyqırımı cinayəti törətmiş, ərazilərimizin işğalı ilə bağlı yeni planlarını həyata keçirməyə başlamışdılar. Belə bir dövrdə BMT-yə üzv olan Azərbaycan ilk növbədə Ermənistanın işğal planlarını dünyaya çatdırmaq, öz təhlükəsizliyini təmin etmək, maraq və mənafelərini qorumaq üçün mühüm tribuna qazandı. Bu tribunadan istifadə etməklə, BMT-nin potensial imkanlarından yararlanmaqla respublikamız artıq tarixə qovuşmuş Qarabağ probleminin ədalətli həllinə çalışdı.

Xalqımızın Ulu Öndəri Heydər Əliyevin 1993-cü ildə hakimiyyətə dönüşündən sonra Azərbaycanın mühüm beynəlxalq platforma kimi BMT ilə əlaqələri keyfiyyətcə yeni mərhələyə qədəm qoydu. Ümummilli Lider Heydər Əliyevin 1994-cü ilin sentyabr ayında BMT Baş Assambleyasının 49-cu sessiyasında iştirakı ilə Azərbaycanla BMT arasında məzmunlu tərəfdaşlığın əsası qoyuldu.

Məhz Heydər Əliyevin sayəsində respublikamız BMT tribunasından istifadə etməklə dünya ictimaiyyətinin diqqətinin Qarabağ məsələsinə daha çox yönəlməsinə nail oldu. Bu baxımdan Heydər Əliyevin 1994-cü ildə BMT Baş Assambleyasının 49-cu sessiyasında və 1995-ci ildə BMT-nin 50 illik yubileyi ilə əlaqədar BMT Baş Assambleyasının xüsusi təntənəli iclasında çıxışları xüsusi qeyd edilməlidir. Heydər Əliyev BMT tribunasından Azərbaycanın haqq səsini dünyaya çatdırıb, Ermənistanın ölkəmizə qarşı təcavüzünü və onun ağır nəticələrini beynəlxalq aləmə bəyan edib, bu istiqamətdə qlobal səylərin artırılmasına çağırıb. Heydər Əliyev 2000-ci ilin sentyabrında BMT-nin Minillik Zirvə Toplantısında da iştirak edib. Ulu Öndər çıxışında qloballizasiya mövzusuna toxunub, həmçinin Cənubi Qafqazda təhlükəsizlik məsələlərinə Azərbaycanın verdiyi töhfələri qeyd edib.

Prezident İlham Əliyev də xarici siyasətdə BMT ilə əlaqələrə böyük önəm verir. Bu baxımdan Azərbaycanın 2011-ci ildə BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilməsi xarici siyasətimizin mühüm uğuruna çevrildi. Azərbaycanın müstəqil siyasətinin təntənəsi olan bu hadisə respublikamızın sülhün və təhlükəsizliyin təmin edilməsi üzrə qlobal proseslərdə rolunu artırdı, mövqelərini möhkəmləndirdi. BMT TŞ-yə üzvlüyü zamanı Azərbaycan hər zaman beynəlxalq hüququ və ədaləti müdafiə etdi. 2012-2013-cü illərdə rotasiya qaydasında iki dəfə BMT Təhlükəsizlik Şurasına sədrlik edən Azərbaycan üzərinə düşən vəzifələri uğurla yerinə yetirdi, iki il ərzində dünyada sülh və təhlükəsizliyin təmin olunması istiqamətində böyük səylər göstərdi.

Təbii ki, torpaqlarımızın işğaldan azad olunması Prezident İlham Əliyevin BMT tribunasından diqqət yetirdiyi prioritet məsələ idi. İştirak etdiyi BMT Baş Assambleyasının sessiyalarında diqqəti buna yönəldən Prezident İlham Əliyev BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi 4 qətnamənin yerinə yetirilmədiyini bəyan etmiş və onların həyata keçirilməsinin işlək mexanizminin yaradılmasını ümdə məsələ kimi irəli sürmüşdü.

BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə 822, 853, 874 və 884 saylı qətnamələrinin tələbləri Ermənistan tərəfindən yerinə yetirilmədi. Başqa cür desək, BMT də bir təşkilat olaraq bu qətnamələrin yerinə yetirilməsində qətiyyət göstərmədi. Azərbaycanın ərazi bütövlüyü başda BMT olmaqla, üzvü olduğumuz bütün mötəbər beynəlxalq təşkilatlar tərəfindən tanınsa da, onların böyük əksəriyyəti Ermənistanın işğalçı siyasətinə son qoyulması üçün qətiyyət, dirəniş göstərmədilər. Halbuki beynəlxalq praktikada qətnamələrin tələblərinin güc və təzyiq yolu ilə yerinə yetirilməsi nümunələri var.

Lakin Azərbaycan öz milli haqqı uğrunda düz yolundan dönmədi və 2020-ci ilin Vətən müharibəsində BMT Nizamnaməsinə istinad edərək torpaqlarının işğaldan azad olunmasını təmin etdi. Bu savaşda Azərbaycan güc yolu ilə BMT TŞ-nin qətnamələrinin tələblərinin yerinə yetirilməsini təmin etdi.

Qlobal problemlərin həllinə layiqli töhfələr verən Azərbaycan bu məsələlərdə beynəlxalq təşkilatların, o cümlədən BMT-nin də imkanlarının səfərbər edilməsinə nail olur. Buna misal kimi, COVID-19 pandemiyasına qarşı mübarizədə beynəlxalq əməkdaşlığın gücləndirilməsinin vacibliyini nəzərə alaraq, Qoşulmama Hərəkatının sədri qismində Prezident İlham Əliyevin təklifi əsasında BMT Baş Assambleyasının xüsusi sessiyasının çağırılmasını göstərmək olar. Bu təklif BMT-yə üzv olan 150-dən artıq dövlət tərəfindən dəstəkləndi və 3-4 dekabr 2020-ci ildə xüsusi sessiya keçirildi. 2021-ci ildə BMT Baş Assambleyasının 76-cı sessiyası çərçivəsində assambleyanın plenar iclasında Qoşulmama Hərəkatının sədri qismində Azərbaycan Prezidentinin təşəbbüsü ilə QH üzvləri adından irəli sürülmüş "COVID-19 əleyhinə peyvəndlərə bərabər, məqbul qiymətə, vaxtında və universal əlçatanlığın təmin edilməsi" adlı qətnamə BMT-yə üzv dövlətlərin mütləq əksəriyyətinin dəstəyi ilə qəbul edildi.

Azərbaycan bu gün BMT-nin etimad və ehtiram göstərilən üzvüdür. 2024-cü ilin noyabr ayında Bakıda keçirilən BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) bir daha bunu təsdiq etdi.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Demokratiyanın iki üzü - ədalətin ikili standartı

## Fransanın bitməyən qərəzi

### Makron uğursuzluqlarının günahını ölkəmizin üstünə atmaq istəyir

**Makron hökumətinin yürütdüyü yarıtmaz siyasət nəticəsində bu gün Fransa özünün ən böhranlı günlərini yaşayır. Eyni zamanda qoca qitənin müstəmləkəçi ölkəsinin rəhbəri neokolonial siyasətinin ifşa olunmasına görə sözün əsl mənasında başını itirib, düçar olduğu uğursuzluqlarının günahını yıxmağa ünvan axtarır. O da təsadüfi deyil ki, Makron Fransanın həyata keçirdiyi daxili və xarici siyasətin tənəzzülə uğramasının səbəbini məhz Azərbaycanda görür. Hətta o, ölkəmizlə bağlı gülünc ittihamlarını vaxtaşırı dilə gətirməkdən belə utanmır.**



#### Qeyri-adekvat siyasətin nəticəsi

"Görünür ki, cənab Makron Azərbaycansız yaşaya bilmir. Onda hansısa belə bir maniya yaranıb və bütün günahlarını bizim üstümüzə atmaq istəyir", - deyə yanvarın 7-də yerli televiziya kanallarına müsahibəsində bildirən Prezident İlham Əliyev qeyd etmişdi ki, əslində, bu açıqlama öz acizliyinin etirafıdır.

Dövlətimizin başçısı əlavə etmişdi ki, özlərini böyük dövlət adlandıran bir prezident, sən demə, uzaqda - Qafqaz bölgəsində yerləşən, 10 milyon əhalisi olan ölkənin əməllərindən əziyyət çəkir: "Halbuki bizim bu Fransanın daxili işləri ilə bağlı heç bir işimiz yoxdur. Sadəcə olaraq, qeyri-normal yanaşma, qeyri-adekvat siyasət buna gətirib çıxarıb".

Vaxtilə Qarabağ münaqişəsinin dialoq yolu ilə tənzimlənməsi üçün missiyalandırılan və iki onillikdən artıq müddət ərzində vəzifəsinin öhdəsindən gəlmək üçün heç bir iş görməyən, əksinə məsələnin Ermənistanın xeyrinə dondurulması üçün dəridən-qabıqdan çıxan həmsədr ölkə Fransa Azərbaycanın torpaqlarını işğaldan qurtarmasını, suverenliyini təmin etməsini heç cür həzm edə bilmir. Beş ilə yaxın müddətdir ki, Yelisey sarayı Bakıya qarşı açıq qərəz nümayiş etdirir. Regionda sülh üçün salınan bütün körpüləri yandırmaqla məşğul olan Fransa Cənubi Qafqazda müharibə planlaşdırır. Bir yandan Ermənistanı silahlandıraraq revanşa qızışdıran Makron hökuməti, digər yandan Azərbaycana qarşı qərəz kampaniyası aparır, ölkəmizin üzərinə iftira və böhtanlar ataraq beynəlxalq ictimaiyyətdə yanlış rəy formalaşdırmaq istəyir.

#### Siyasi simasızlıq

Bu il fevralın 28-də Fransanın dənizaşırı ərazilər naziri Manuel Valsın Yeni Kaledoniyaya səfəri zamanı Azərbaycanı Fransanın dənizaşırı ərazilərinə müdaxilədə və sabitliyi pozmağa çalışmaqda günahlandırması, habelə ölkəmizi Qarabağda guya etnik təmizləmə aparmaqda ittiham etməsi də Makron komandasının çirkin siyasətini açıq ortaya qoyur.

XXI əsrdə hələ də kolonial siyasət yürüdən, müstəmləkə altında saxladığı ərazilərdəki xalqların fundamental insan hüquqlarını pozan Fransanın Azərbaycanı dənizaşırı ərazilərə müdaxilədə, sabitliyi pozmaqda ittiham etməsi gülünc olduğu qədər də həyasızlığın bariz göstəricisidir.

Tarixi soyqırımlar üzərində qurulan, bir milyon yarımdan çox əlcəzairlinin qanı hələ də əllərindən qurumayan neokolonial ölkənin Yeni Kaledoniyada kanakların azadlıq səslərini qanla boğması, onları repressiyaya məruz qoyması dünyanın gözü qarşısında baş verir. Bu baxımdan Manuel Valsın elə Yeni Kaledoniyada ölkəmizi "etnik təmizləmə"də suçlaması da siyasi simasızlıqdan başqa bir şey deyil.

Fransanın dənizaşırı ərazilər nazirinin sözügedən böhtan dolu iddialarına Azərbaycan Xarici İşlər Nazirliyinin cavabında deyilir ki, iflasa uğramış xarici siyasətindən dərs çıxarmaq əvəzinə, ölkəmizi əsassız iddialarla günahlandırmaqla düşdüyü vəziyyətdən ictimai diqqəti yayındırmağa çalışan Fransa tərəfinin səsləndirdiyi fikirləri qətiyyətlə rədd edirik. XİN mətbuat katibi Ayxan Hacızadə bildirib ki, Fransadan fərqli olaraq, öz xarici siyasətində və bütün addımlarında beynəlxalq hüququn əsas norma və prinsiplərini rəhbər tutan Azərbaycanı əsassız yerə günahlandıran bu ölkənin özünün müstəmləkəçilik keçmişini davam etdirmək naminə müxtəlif ölkə və xalqlara qarşı atdığı qeyri-demokratik addımlarını unutmasına baxmayaraq, onları hər kəs yaxşı xatırlayır: "Qəribədir ki, Azərbaycanı "etnik təmizləmə"də ittiham edən Fransa tərəfi, keçmiş münaqişənin həllinə məsul olan Minsk prosesinin həmsədrlərindən biri olması və bu ölkənin heç zaman Ermənistanın işğal siyasəti nəticəsində 1 milyona yaxın azərbaycanlının qaçqın və məcburi köçkünə çevrilməsini qınamaması fonunda, könüllü surətdə Azərbaycanın Qarabağ bölgəsini tərk edən insanların guya "etnik təmizləməyə" məruz qalmasını iddia etməsi riyakarlıqdan və öz maraqları naminə faktların təhrifindən başqa bir şey deyil".

#### BTQ faktlara əsaslanan hesabatlar üzərində işləyir

2023-cü il iyulun 6-da ölkəmizdə yaradılan Bakı Təşəbbüs Qrupu (BTQ) müstəmləkəçilikdən əziyyət çəkən xalqların azadlıq uğrunda apardıqları ədalətli mübarizəyə fəal dəstək verir. Müstəqillik uğrunda mübarizəyə qalxan yerli xalqların nümayəndələri bu gün BTQ ətrafında sıx birləşiblər və haqq səslərini dünyaya çatdırırlar. Lakin müstəmləkə siyasətinin ifşa olunmasını qətiyyən istəməyən və buna görə Azərbaycana qarşı qərəzi birə-beş artan ermənipərəst Fransa çıxış yolunu ölkəmizə qarşı qərəzli siyasət həyata keçirməkdə görür.

BTQ də Manuel Valsın Yeni Kaledoniyaya səfəri zamanı verdiyi əsassız və qərəzli ittihamlarını qətiyyətlə rədd edib. Qrupun icraçı direktoru Abbas Abbasov Valsın açıqlamalarını Fransanın öz müstəmləkə siyasətini və Kanak xalqına qarşı davam edən repressiyalarını ört-basdır etmək üçün növbəti uğursuz cəhd kimi qiymətləndirib və BTQ-nin heç bir dövlətin daxili işlərinə müdaxilə etmədiyini bildirib. O məlumat verib ki, hazırda BTQ Fransanın koloniyalarda törətdiyi vəhşilikləri, habelə etnik təmizləmə də daxil olmaqla ağır cinayətlərini özündə əks etdirən və faktlara əsaslanan hesabatlar üzərində işləyir.

Bir sözlə, Fransa hər nə qədər çalışsa da neokolonial siyasəti birdəfəlik iflasa uğrayacaq. Afrikadakı dövlətlərdən bir-bir qovulduğu kimi dənizaşırı ərazilərdən də birdəfəlik rədd olacaq.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

## Ermənistan sülh istəyirsə...

### Konstitusiyasında əksini tapan işğalçı iddialarından imtina etməlidir

**"Ermənistan tarixi boyu öz milli təhlükəsizliyini müstəqil şəkildə təmin edə bilməyib. Bu ölkə SSRİ dövründə də ittifaq rəhbərliyində təmsil olunan erməniəsilli şəxslər vasitəsilə xüsusi imtiyazlar əldə edib. İttifaqın süqutundan sonra isə digər dövlətlərin himayəsinə bel bağlayıb".**



Bu sözləri qəzetimizə açıqlamasında Milli Məclisin deputatı Pərvanə Vəliyeva deyib. O xatırladıb ki, 1990-cı illərin əvvəllərində Azərbaycan torpaqlarının işğalı zamanı da Ermənistan müstəqil şəkildə hərbi uğur qazanmamışdı, bəzi xarici qüvvələrin dəstəyi ilə torpaqlarımızı zəbt etmişdi. Ermənistanın xarici siyasətində ənənəvi olaraq "qarant dövlət" tapmaq strategiyası ön planda olub. Bu, faktiki olaraq İrəvanın hərbi, siyasi və iqtisadi imkanlarının məhdud olması, qonşu ölkələrə ərazi iddiaları irəli sürməsi ilə bağlıdır.

Ermənistanın bu gün də eyni siyasət yürütdüyünü vurğulayan deputat deyib ki, postmüharibə dövründə Paşinyan hakimiyyəti Fransanı və ABŞ-ni regionda fəallaşdırmağa çalışaraq, özünə yeni təhlükəsizlik konfiqurasiyası formalaşdırmaq niyyətindədir: "Azərbaycan isə həmişə müstəqil xarici siyasət yürütməyə çalışıb və bu yolda xarici təzyiqlərə, hətta ağır itkilərə məruz qalıb. Ölkəmiz kənar dövlətlərin diktə etdiyi şərtlərlə heç vaxt razılaşmayıb. Başqa sözlə desək, ərazisinin bir hissəsi itirilsə də, müstəqilliyini qoruyub saxlayıb. Ümummilli Lider Heydər Əliyevin və Prezident İlham Əliyevin dövründə formalaşmış ən əsas prinsip ondan ibarətdir ki, ölkəmizin təhlükəsizliyinin əsas qarantı elə Azərbaycan dövlətinin özü olmalıdır. Yeni ordu quruculuğu, iqtisadi güc və diplomatik siyasət daxili imkanlarla gücləndirilməlidir. 2020-ci ilin Vətən müharibəsi ilə Azərbaycan öz gücü və resursları ilə işğalda olan torpaqlarını azad edərək BMT Təhlükəsizlik Şurasının qətnamələrinin icrasına nail oldu. Bu, eyni zamanda onu göstərdi ki, Azərbaycan kənar qüvvələrin qərar və dəstəyinə deyil, öz hərbi-siyasi potensialına arxalanmağı üstün tutur".

P.Vəliyeva qeyd edib ki, Vətən müharibəsindən sonra Nikol Paşinyan hakimiyyəti "köhnə təhlükəsizlik formatı"nın - yəni təkcə Rusiya ilə hərbi ittifaqın kifayət etmədiyini başa düşüb. Qərbə inteqrasiyanı daha da dərinləşdirmək istədiyini bəyan edən Paşinyan praktiki olaraq Fransanı və ABŞ-ni regionda fəal rol oynamağa çağırıb. Minsk qrupu faktiki olaraq regiondan kənarda qalmışdı, çünki qurum 30 ilə yaxın fəaliyyətində nəticə verə bilməmişdi. Ermənistan hökuməti isə Minsk qrupunun aktivləşdirilməsinə çalışmaqla, həm də Qərbin bu format vasitəsilə yenidən regiona dönməsinə şərait yaratmağa cəhd göstərir.

Deputat vurğulayıb ki, Fransa və ABŞ bu dəfə yalnız Minsk qrupu həmsədrləri kimi deyil, digər humanitar, sülhməramlı və ya müşahidəçi missiyalar adı altında Ermənistanda mövqelərini gücləndirməyə çalışırlar: "Ermənistan rəhbərliyi bununla həm Rusiyaya alternativ yaradır, həm də xaricdən siyasi-hərbi dəstək əldə etməklə, hakimiyyətinin möhkəm qalmasını hədəfləyir. Əgər Ermənistan həqiqətən sülhə can atırsa, bu təsisatdan imtina etməlidir. Çünki münaqişə bitdiyinə görə ehtiyac qalmır. Bundan əlavə, sülhə nail olmaq istəyən dövlət aqressiv ritorika aparmaz, ATƏT, AŞ PA və Frankofoniya təşkilatı kimi platformalardan Azərbaycana qarşı böhtan və təxribat xarakterli məlumatlar yaymazdı. Ermənilərin bu platformalardan təzyiq vasitəsi kimi istifadə etməsi, sülh niyyətlərinə şübhə yaradır".

Deputat qeyd edib ki, Ermənistanın sülh müqaviləsini imzalaması üçün atacağı əsas addım Azərbaycanın ərazi bütövlüyünü əməldə tanımaqdır. Bu, təkcə diplomatik bəyanatlarda yox, həm də Ermənistan konstitusiyasına və digər hüquqi sənədlərinə müvafiq düzəlişlər olunmasında əksini tapmalıdır. Hazırda Ermənistan konstitusiyasında "Ermənistan və Dağlıq Qarabağın birləşməsi" kimi müddəalar və bu qəbildən olan ideoloji yanaşmalar Azərbaycanın ərazi bütövlüyünə ziddir və iki ölkə arasında inamsızlığın əsas mənbəyinə çevrilir. Ermənistanın sülhə hazır olub-olmaması təkcə hökumətin bəyanatları ilə məhdudlaşmır. Bu ölkənin cəmiyyətində formalaşmış "tarixi torpaqlar" və "birgə Ermənistan" çağırışları sülhə əngəl yaradır. Buna görə də İrəvan öz cəmiyyətini sülhə hazırlamalı və sərhədlərin qarşılıqlı şəkildə tanınması prinsipini qəbul etməlidir. "Ermənistanın gələcək inkişafı onun qonşuları ilə münasibətlərinin normallaşmasından asılı olacaq. Təkcə coğrafi deyil, həm də iqtisadi gerçəkliklər göstərir ki, Ermənistan blokadadan çıxmaq, ticarət əlaqələrini genişləndirmək və regional layihələrə qoşulmaq üçün sülh sazişi imzalamağa məcburdur. Süni maneələr yaratmaq və köhnə iddialara qapılmaq əvəzinə, Ermənistan konstruktiv addımlar atmalı, ərazilərin qarşılıqlı tanınmasına gedərək sabit və sülh şəraitində inkişaf yolunu seçməlidir. Ermənistanın hazırda yürütdüyü "iki stulda eyni vaxtda oturmaq" siyasəti - həm Rusiyanın, həm də Qərbin müttəfiqi olmaq uzunmüddətli perspektivdə ziddiyyətli vəziyyət yaradacaq. Paşinyan hökuməti bu siyasətin hələ də davam edəcəyini göstərir, amma bunun sülhə nə dərəcədə kömək edəcəyi sual altındadır. Əgər sülh müqaviləsi gecikərsə, regionda gərginlik artmaqla yanaşı, Ermənistanın daxili problemləri dərinləşə və iqtisadi təcridi sürətlənə bilər", - deyə o əlavə edib.

Siyasətçi bildirib ki, regionda davamlı sülhə nail olmaq istəyən rəsmi İrəvan gerçək addımlar atmalıdır: konstitusiyasında işğalçı iddialardan imtina etməli, Azərbaycanın ərazi bütövlüyünü əməldə tanımalı və revanşit ideyalardan birdəfəlik əl çəkməlidir.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

## Ermənistanın ekoloji terroru bütün region üçün təhdiddir

**Ermənistanın ekologiya terrorçusu olduğu 30 il ərzində işğalda saxladığı torpaqlarımızda təbiətə vurduğu sağalmaz yaralardan məlumdur. Qarabağ və Şərqi Zəngəzurda meşələri qıran, bulaqları, çayları qurudan, yanmış torpaq siyasəti həyata keçirən təcavüzkar ölkə bu ərazilərdə yerləşən təbii sərvətlərimizi qeyri-qanuni talayan zaman da təbiətimizi məhv edib.**

Araşdırmalardan məlum olub ki, "Söyüdlü" yatağının qeyri-qanuni istismarı nəticəsində subalp çəmənliklərindən ibarət zəngin bioloji müxtəlifliyə malik 800 hektardan çox dağ-çəmən ekosistemləri tamamilə dağıdılıb. Oxçuçay Ermənistanın Mehri, Qacaran, Qafan və digər dağ-mədən sənayesinin turş suları, ağır metalları və sair ilə çirkləndirilib. Həmçinin işğal dövründə ermənilər Xonaşen, Qarqarçay, Xaçınçay, İncəsuçay, Coğazçay, Oxçuçay, Tərtərçay çaylarına müxtəlif məişət tullantıları, zavod və mədənlərin çirklənmiş sularını axıdıblar. Bərgüşad və Həkəri çaylarının zəngin və qiymətli balıq sortları erməni qəsbkarları tərəfindən elektrik cərəyanları və partlayıcı maddələrlə məhv edilib. Qarabağın və Şərqi Zəngəzurun şirin su ehtiyatlarının Ermənistanın çirkli sənaye və kənd təsərrüfatı suları ilə mütəmadi olaraq çirkləndirilməsi canlı ekosistemlərə ciddi ziyan vurur. Araz çayı və onun sol qolları Ermənistanın 16-dan çox yaşayış yerinin çirkab suları ilə mütəmadi olaraq çirkləndirilir.

Bunlar təkcə Qarabağ və Şərqi Zəngəzurda ermənilər tərəfindən törədilən ekoloji cinayətlər barədə azsaylı nümunələrdir.

#### Ekosid fəaliyyətə son qoyulmalıdır

Dəhşətlisi odur ki, Ermənistan həyata keçirdiyi ekosid siyasəti ilə Azəraycanda, ümumilikdə bölgədə həyatı təhlükə altında qoyur. Bu baxımdan "Environmental Protection First" (EPF) Koalisiyası tərəfindən Cənubi Qafqazın və Xəzər dənizinin ekologiyasını zəhərləyən Ermənistanın dağ-mədən sənayesi müəssisələri barədə interaktiv rəqəmsal xəritənin hazırlanmasının müstəsna əhəmiyyəti var. Bir neçə gün əvvəl ictimaiyyətə təqdim edilən infobank mahiyyətli rəqəmsal xəritə Azərbaycan, ingilis və erməni dillərində hazırlanıb. Rəqəmsal xəritəni tərtib edən koalisiyaya üzv olan "Azərbaycan Kartoqrafları" İctimai Birliyinin sədri Müqabil Bayramov məlumat verib ki, interaktiv xəritədə faydalı qazıntıların növləri, yerləşdiyi ərazilər, əsas çirkləndirici müəssisələr, onların hansı maddələrlə hansı çayları çirkləndirməsi barədə məlumatlar təqdim olunur. Xəritənin altlığı həm topoqrafik, həm də kosmik görüntülüdür. İstehsal müəssisələri haqqında məlumatlar kosmik təsvirlərin analizi nəticəsində alınıb. Xəritədə xammal emalı müəssisələri, istismar edən şirkətlərin adları, müəssisələrin təyinatı, ətraf mühitə təsirləri haqqında məlumatlar, foto və videolar verilib.

EPF Koalisiyasının həmtəsisçisi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında İctimai Şuranın sədri Amin Məmmədov qeyd edib ki, Ermənistanın və bu ölkədə işləyən xarici şirkətlərin dünyada qəbul olunmuş ekoloji norma və standartlar gözlənilmədən apardıqları ekosid fəaliyyəti dərhal dayandırılmalıdır, Ermənistanın bütün bölgəni zəhərləməsinin qarşısı alınmalıdır. Ermənistan əhalisi və region ölkələrinin ictimaiyyəti onlardan gizlədilənlər barədə mütləq xəbər tutmalıdır: "Azərbaycan QHT-lərinin Ermənistanın dağ-mədən sənayesinin ekoloji fəsadlarına qarşı açdığı cəbhə dünyanın ən müxtəlif ölkələrindəki ekoloji təşkilatlar tərəfindən alqışlanıb. Biz davamlı dəstək mesajları alırıq. 2024-cü ilin mayında Keniyada BMT-nin Vətəndaş Cəmiyyəti Forumunda, sentyabrında ABŞ-də BMT-nin Gələcəyin Sammiti toplantısında, noyabrında COP29-da biz bu barədə geniş iş aparmışıq. Ermənistanın hərəkətlərindən bir çox ekofəallar və beynəlxalq ekspertlər dəhşətə gəlib".

EPF Koalisiyasının həmtəsisçisi Sabit Bağırov təklif edib ki, Mədən Sənayesində Şəffaflıq Təşəbbüsü öz standartında ekoloji normaların tətbiqinə dair meyarları gücləndirməlidir: "Belə olsa, Mədən Sənayesində Şəffaflıq Təşəbbüsünün üzvü olan Ermənistan bu sahədə daha şəffaf və məsuliyyətli olar. BMT-nin Transsərhəd su axarlarının və beynəlxalq göllərin mühafizəsi və istifadəsi haqqında konvensiyası üzrə katibliyi də bu problemlə bağlı konkret mövqe ortaya qoymalıdır. Biz onlarla da görüşməyə hazırıq. Çünki Ermənistan bu konversiyaya qoşulmaqdan qaçır".



#### Bölgədə həyat təhlükə altındadır

Ermənistanın dağ-mədən sənayesinin regionda ekoloji sabitliyi pozması ilə bağlı Azərbaycan QHT-ləri ötən müddətdə bu ölkənin rəhbərliyinə, eləcə də beynəlxalq ictimaiyyətə çağırışlar edib. 2023-cü il iyulun 7-də Azərbaycanın qeyri-hökumət təşkilatlarının Ermənistanın dağ-mədən sənayesinin Cənubi Qafqaz regionunda ekoloji sabitliyi pozması barədə baş nazir Nikol Paşinyana müraciətində deyilir: "Davam edən mədən əməliyyatları nəticəsində ekosistemin korlanması təkcə Ermənistanın ətraf mühiti üçün təhdid deyil, həm də qonşu ölkələrə böyük təhlükədir. Ekoloji zərərin transsərhəd xarakteri regionda və ondan kənarda yaşayan icmaların sağlamlığını və rifahını riskə atır. ...Biz beynəlxalq ekoloji norma və standartları, region əhalisinin hüquqlarını pozmaqla aparılan dağ-mədən sənayesi işlərinin dayandırılmasını tələb edirik".

Azərbaycan QHT-ləri tərəfindən 2022-ci il dekabrın 12-dən Laçın yolunda başlayan və 138 gün davam edən dinc ekoloji aksiya da məhz Ermənistanın Qarabağ ərazisində qızıl və mis yataqlarının qanunsuz istismarına və talan olunmasına, həmçinin həmin ərazilərdə baş verən ekoloji terrora etiraz olaraq keçirilmişdi. Aksiya iştirakçıları ölkəmizin təbii sərvətlərinin qanunsuz istismarına və talanmasına son qoyulmasını, bu ərazilərdə törədilən ekoloji terrorun dayandırılmasını, həmin ərazilərin monitorinqinə şərait yaradılmasını tələb edirdilər. Təcavüzkar ölkənin bu cinayət əməlinə görə Azərbaycan QHT-ləri beynəlxalq təşkilatlara və xarici qeyri-hökumət təşkilatlarına da müraciətlər etmişdilər.

#### "Suyun, torpağın və biomüxtəlifliyin kimyəvi çirklənməsi"

Azərbaycan Ermənistanın Qarabağ və Şərqi Zəngəzurda törətdiyi ekoloji terrora görə beynəlxalq məsuliyyətə cəlb edilməsi üçün iş aparır. Fevralın 12-də Azərbaycan tərəfi Haaqa şəhərində yerləşən Daimi Arbitraj Məhkəməsinin mənzil-qərargahında 1979-cu il tarixli "Avropanın canlı təbiətinin və təbii mühitinin qorunması haqqında" Konvensiya ("Bern Konvensiyası") əsasında Ermənistana qarşı arbitraj işi üzrə iddia sənədini təqdim edib. İddia sənədində Ermənistanın "Bern Konvensiyası"na dair hüquqi öhdəliklərinin çoxsaylı pozuntuları ətraflı şəkildə öz əksini tapıb.

Bununla bağlı Xarici İşlər Nazirliyinin məlumatında bildirilib ki, Azərbaycan Ermənistan tərəfindən yaşayış yerlərinin və canlı təbiətin kütləvi şəkildə məhv edilməsinə görə bu ölkədən tam təzminat tələb edir. Buraya Azərbaycan ərazilərinin bir hissəsinin Ermənistan tərəfindən işğalı zamanı əraziyə aid olan yüzlərlə vəhşi təbiət növünə və yaşayış yerlərinə mənfi təsir göstərən addımlar, o cümlədən meşələrin genişmiqyaslı qırılması, ekoloji cəhətdən səmərəsiz şəkildə ağacların kəsilməsi, mədənçilik və su-elektrik stansiyalarının tikintisi daxildir. Qeyd olunub ki, Birləşmiş Millətlər Təşkilatının Ətraf Mühit Proqramı (UNEP) hesabatında Oxçuçayda yüzlərlə balığın ölü tapıldığını əlavə edərək əvvəllər işğal olunmuş ərazilərdə mədənçiliyin "suyun, torpağın və biomüxtəlifliyin kimyəvi çirklənməsi"nə səbəb olduğunu sənədləşdirib. İşğal zamanı Ermənistan tərəfindən törədilən hərəkətlər hələ də bir neçə qorunan balıq və amfibiya növünü təhdid edir.

Göründüyü kimi, işğal dövründə ekosistemi məhv edən Ermənistan hazırda da beynəlxalq ekoloji norma və standartları pozmaqla aparılan dağ-mədən sənayesi sayəsində regionun ekologiyasını zəhərləməkdə davam edir. Buna görə əlaqədar beynəlxalq qurumlar Ermənistanın dağ-mədən sənayesinin ekoloji fəsadlarına göz yummamalı, onu ekosidi dərhal dayandırmağa məcbur etməlidir.

*Y.MUSAYEVA,*
*"Azərbaycan"*

# İŞİMİZ, GÜZƏRANIMIZ

# Azərbaycanın enerji əməkdaşlığı qitələri aşır

**Azərbaycanın neft sənayesi sahəsində qazandığı təcrübə hamıya məlumdur. Təsadüfi deyil ki, dünyanın digər neft regionlarındakı həmkarları da neftçilərimizin bacarıqlarını yüksək dəyərləndirir və onlarla təmasda olmağa, təcrübələrindən bəhrələnməyə çalışırlar. Karbohidrogenlərlə zəngin olan ölkələrlə əməkdaşlıq və tərəfdaşlıq əlaqələri də genişlənir, birgə həyata keçirilən layihələrin sayı ildən-ilə artır.**



İki onilliyə yaxındır ki, Azərbaycan həm də qaz ixrac edən ölkə kimi böyük marağa səbəb olub. Bu sahədəki nailiyyətlərimizi göstərən faktlardan yalnız onu demək kifayətdir ki, hazırda 12 ölkəyə qaz ixrac edirik və onların 10-u Avropa ölkəsidir.

"Yaşıl gündəliy"imiz də artıq dünyaya bəllidir. Keçən ilin noyabrında ölkəmizin evsahibliyi etdiyi COP29-un sayəsində bu sahədəki uğurlarımız da bir daha hamıya məlum oldu. İndi Avropaya "yaşıl enerji" dəhlizi açmağı hədəfləmişik. Bu sahədə də tərəfdaşlarımız çoxdur - Qazaxıstan, Özbəkistan, Gürcüstan, Türkiyə, Macarıstan, Rumıniya, Bolqarıstan...

Külək və günəş-elektrik stansiyalarının inşasında isə Birləşmiş Ərəb Əmirlikləri, Səudiyyə Ərəbistanı, Böyük Britaniya və digər ölkələrlə tərəfdaşlıq edirik. Bir sözlə, Azərbaycanın digər ölkələrlə enerjinin ayrı-ayrı sahələri üzrə əməkdaşlığı getdikcə genişlənir və mübaliğəsiz demək olar ki, artıq qitələrin sərhədlərini aşır. Bu əməkdaşlıq əlaqələri artıq Afrikaya da uğurlu istiqamət alıb.

Qeyd edək ki, Azərbaycanla Afrika qitəsi ölkələri arasında iqtisadiyyatın bir sıra sahələrində əməkdaşlığın inkişaf etdirilməsi üçün böyük potensial var. Bu potensialdan səmərəli istifadə olunması üçün son dövrlər əməli tədbirlər görülür. Onu da xatırladaq ki, hazırda Azərbaycanın sözügedən qitədə ən geniş iqtisadi əlaqələrə malik olduğu ölkələr Tunis, Cənubi Afrika Respublikası, Misir, Mərakeş, Liviya və Keniyadır. Son vaxtlar Konqo ilə enerji sahəsində əməkdaşlıq üçün addımlar atılıb. Belə ki, SOCAR ilə Konqo Milli Neft Şirkəti arasında "Congolaise de Raffinage" neft emalı zavodunun təkmilləşdirilməsi və genişləndirilməsinə dair sənəd imzalanıb.

Həmçinin Misir şirkətləri ilə əməkdaşlıq istiqamətində işlər aparılır. Prezident İlham Əliyevin keçən ilin iyun ayında Misir Ərəb Respublikasına rəsmi səfəri əməkdaşlıq üçün yeni səhifə açdı. Belə ki, səfər çərçivəsində imzalanan sənədlər sırasında energetika və bərpaolunan enerjiyə aid oanlar da var.

Afrika qitəsi ölkələri ilə neft-qaz sahəsində əməkdaşlıq əsasən xam neftin, neft və neft-qaz kimya məhsullarının, mayeləşdirilmiş təbii qazın (LNG) alqı-satqısı üzərində qurulub. SOCAR-ın Afrika regionu üzrə əməkdaşlıqda maraqlı olduğu ölkələr ilk növbədə Konqo Respublikası, Keniya, Ekvatorial Qvineya, həmçinin Misir, Əlcəzair, Nigeriya, Mərakeş, Liviya, Tunis, Seneqal və CAR-dır. Afrika qitəsində yerləşən bir çox ölkənin təbii minerallarla zəngin olduğu məlumdur. Odur ki, mədənçilik sahəsində də əməkdaşlıq imkanlarının araşdırılması məqsədilə Konqo, Syerra-Leone, Keniya, Niger, Burkina Faso və Mali kimi ölkələrin müvafiq qurumları ilə görüşlər keçirilib və müzakirələr aparılıb.

Bu günlərdə isə SOCAR-ın prezidenti Rövşən Nəcəf Somali Federativ Respublikasının neft və mineral sərvətlər naziri Dahir Shire Mohamed ilə görüşüb. Görüşdə cari il fevralın 12-də dövlətimizin başçısı İlham Əliyevlə Somali Federativ Respublikasının Prezidenti Hasan Şeyx Mahmud arasında keçirilən yüksəksəviyyəli görüşlərin ölkələrimiz arasında müxtəlif istiqamətlərdə, o cümlədən enerji sektorunda əməkdaşlıq üçün əlverişli zəmin yaratdığı xüsusi vurğulanıb.

Söhbət zamanı Somalidə neft-qaz sahəsində insan kapitalının inkişafı məqsədilə somalili tələbələrin BANM-də təhsil almaları, somalili mütəxəssislərin neft-qaz sahəsində bilik və təcrübələrinin artırılması üçün əməkdaşlıq imkanları nəzərdən keçirilib.

Görüşdə enerji sektorunun müxtəlif istiqamətlərində, o cümlədən axtarış-kəşfiyyat və treydinq istiqamətlərində mümkün əməkdaşlığın araşdırılması və qarşılıqlı maraq doğuran digər məsələlər müzakirə olunub.

Onu da qeyd edək ki, fevralın 12-də Azərbaycanın energetika naziri Pərviz Şahbazov və Somalinin energetika və su resursları naziri Abdullahi Bidham Varsame "Azərbaycan Respublikasının Energetika Nazirliyi ilə Somali Federativ Respublikasının Energetika və Su Ehtiyatları Nazirliyi arasında "yaşıl enerji" sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nu mübadilə etmişlər.

Afrika qitəsi ilə yeni bir əməkdaşlıq istiqaməti də var. Qvineya-Bisau Respublikasının Prezidenti Umaro Moktar Sissoko Embalo ötən ilin noyabrında COP29-a qatılmaq üçün Azərbaycanda səfərdə olarkən Prezident İlham Əliyevlə görüş zamanı bir sıra iqtisadi sahələrlə yanaşı, neft-qaz əməkdaşlığı məsələləri də müzakirə edilmişdi. Dekabrda isə Qvineya-Bisaunun xarici işlər, beynəlxalq əməkdaşlıq və icmalar naziri Karlos Pinto Pereyra ölkəmizə səfəri zamanı Energetika Nazirliyində, SOCAR-da olmuşdu. Qvineya-Bisau Respublikasının Prezidenti Umaro Moktar Sissoko Embalonun Azərbaycana budəfəki rəsmi səfəri əməkdaşlıq əlaqələrinin daha da genişləndirilməsi üçün geniş perspektivlər açdı.

*Flora SADIQLI,*
*"Azərbaycan"*

## Naftalan Reabilitasiya Mərkəzi müasir avadanlıqlarla təchiz olunub



**Əmək və əhalinin sosial müdafiəsi naziri Anar Əliyev və Naftalan Şəhər İcra Hakimiyyətinin başçısı Vüqar Novruzov özünüməşğulluq proqramı çərçivəsində Naftalan şəhər sakinləri Qurbanov Rövşən İsmayıl oğlu və Cuquyeva Asudə Mürşüd qızı üçün qurulmuş kiçik təsərrüfatlara baxış keçiriblər.**

Özünüməşğulluq proqramı əsasında verilmiş aktivlər hesabına R.Qurbanov "Poliqrafiya xidmətləri", A.Cuquyeva isə "Qadın gözəllik salonu" zərfi üzrə təsərrüfatlarını qurublar.

Onlar işsiz və işaxtaran şəxslərə kiçik bizneslərini yaratmaları üçün göstərilən dəstəyə görə dövlət başçısına minnətdarlıqlarını bildiriblər. Qeyd edək ki, ötən dövrdə Naftalanda 224 şəxs özünüməşğulluq proqramı çərçivəsində kiçik təsərrüfatlarını qurub.

A.Əliyev və V.Novruzov nazirliyin tabeliyindəki Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyinin Naftalan Reabilitasiya Mərkəzinə də baxış keçiriblər.

Müasir tibbi-reabilitasiya avadanlıqları ilə təchiz edilmiş müəssisədə Naftalan şəhərində və ətraf rayonlarda yaşayan əlilliyi olan şəxslərə effektiv fizioterapevtik üsullarla kompleks tibbi, sosial-psixoloji reabilitasiya xidmətləri göstərilir. Burada Naftalan nefti ilə sınanmış müalicə prosedurları da tətbiq edilir. Mərkəzdə yaradılan şərait, əlilliyi olan şəxslərə göstərilən xidmətlər nəzərdən keçirilib.

## ASCO-nun "RoPax" tipli "Azərbaycan" gəmi-bərəsi ilə daşıma göstəriciləri açıqlanıb

**"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin "RoPax" tipli "Azərbaycan" gəmi-bərəsi ilə daşıma göstəriciləri açıqlanıb. "Trend" xəbər verir ki, bu barədə ASCO məlumat yayıb.**

Bildirilib ki, Bakı Gəmiqayırma Zavodunda inşa olunan bu gəmi-bərə ilə 1 mart 2021-ci ildən indiyədək ötən dövrdə 1214 vaqon, 23883 yük maşını, 3844 minik avtomobili, 23739 sərnişin daşınıb.

"Azərbaycan" gəmi-bərəsinin uzunluğu 154,50, eni 17,7, bortunun hündürlüyü isə 7,5 metrdir. Hazırda yükgötürmə qabiliyyətinə görə Xəzərdəki mövcud bərələrdən böyük olan bu gəmi 100 nəfər sərnişin, 56 sistern tipli vaqon və ya 50 yük avtomobili/TIR daşımaq imkanına malikdir.

Qeyd edək ki, unikal dizayna malik bu gəmi-bərə "Baird Maritime" tərəfindən 2021-ci ilin ən yaxşı gəmi-bərəsi seçilib. RINA-nın hazırladığı 2021-ci ilin mühüm gəmiləri (Significant Ships of 2021) siyahısında isə dünya üzrə 50 gəmidən biri olub.




## Məkkə şəhərində Azərbaycan nümayəndə heyətinin iştirakı ilə tədbirlər davam edib

**Məkkə şəhərində keçirilən "2-ci Məkkə Halal Forumu" çərçivəsində iş adamlarının iştirakı ilə Səudiyyə Ərəbistanı-Azərbaycan "dəyirmi masa"sı təşkil olunub.**



KOBİA-dan bildirilib ki, tədbirdə Səudiyyə Ərəbistanının Mərkəzi Asiya ölkələri üzrə İşgüzar Şurasının sədr müavini Əli Alotaibi və KOBİA-nın İdarə Heyətinin sədri Orxan Məmmədov ölkələr arasında biznes və investisiya sahəsində əməkdaşlıq, KOB-lar arasında qarşılıqlı işgüzar əlaqələrin inkişaf etdirilməsi, Azərbaycan məhsullarının Səudiyyə Ərəbistanı bazarına çıxarılması, halal sənaye sahəsində iş adamları arasında əməkdaşlığın genişləndirilməsi perspektivləri barədə fikirlərini bölüşüblər.

"Dəyirmi masa" çərçivəsində biznes nümayəndələri arasında "B2B" görüşləri keçirilib, şirkətlər fəaliyyətləri və əməkdaşlıq imkanları barədə məlumat verib, idxal və ixrac imkanları barədə müzakirələr aparıblar.

Səfər çərçivəsində KOBİA nümayəndələri İslam Ticarət və İnkişaf Palatasının (ICCD) baş katibi Yusif Xələvi ilə görüşərək, bu il Bakıda AZHAB Forumunun keçirilməsi ilə bağlı fikir mübadiləsi aparıblar. Nigeriyanın Ticarət, Sənaye, Mədən və Kənd Təsərrüfatı Palataları Assosiasiyasının prezidenti Jani İbrahim ilə görüşdə isə institusional əməkdaşlığın qurulması və bizneslər arasında əlaqələrin təşviqi müzakirə edilib.

## BP-dən Füzuli irsinə töhfə

**BP şirkəti poeziya dünyasının zirvələrindən biri olan, insanın hiss və duyğularının dərinliyinin poeziya dilində bənzərsiz ifadəçisi, qüdrətli söz ustası Füzuli haqqında ikicildlik kitabı təqdim edib. Kitab dahi şairin 530 illik yubileyinə BP-nin töhfəsidir.**

Füzuli məhəbbət, mistika, insan ruhu və varlığı mövzularını elm, sənət, məntiq və poetik təxəyyül elementləri ilə təkrarsız şəkildə birləşdirərək misilsiz və ölməz ədəbi irs yaratmışdır. Bu irs müxtəlif dövrlərdə bir çox şair, yazıçı, musiqiçi və rəssamı cəlb edərək onun haqqında ədəbiyyat, musiqi və incəsənətin müxtəlif sahələrində əsərlər yaratmağa ruhlandırmışdır.

Yeni təqdim olunan kitab Füzuliyə həsr olunmuş bütün şeirlər, poemalar, romanlar, pyeslər və hekayələrdən, eləcə də onun müxtəlif dövrlərdə fərqli rəssamlar tərəfindən yaradılmış çoxsaylı portret və əsərinə çəkilmiş illüstrasiyadan ibarət geniş və hərtərəfli materiallar toplusudur.

Bakı Muğam Mərkəzində keçirilən tədbirdə çıxış edən BP-nin Xəzər regionu üzrə vitse-prezidenti Bəxtiyar Aslanbəyli dedi: "Poeziya nəhəngi Füzuliyə aid əsərlərin hərtərəfli və əhatəli toplusu olan bu nəfis nəşri təqdim etməkdən çox məmnunuq. Füzulinin poeziyası emosional dərinliyi və ifadə gücü ilə nəsilləri heyran etmiş və onlara təsir göstərmişdir. Bu gün də onun şeirləri ruhumuza toxunaraq poetik ifadənin misilsiz gücü və qüdrəti, mistik metaforalar və simvollardan istifadə bacarığı ilə bizi heyrətləndirir. Füzulinin əsərləri təkcə mükəmməl ədəbiyyat nümunələri deyil, eyni zamanda insan ruhunun və onun fəlsəfi və emosional mürəkkəbliyinin dərinliklərinə nüfuz etmək gücünün təcəssümüdür. Ölməz şairin yubiley tədbirlərinə bu kiçik töhfəni verməkdən həqiqətən qürur duyuruq və inanırıq ki, bu nəşr Füzulinin dünya poeziyasında müstəsna mövqeyini vurğulayan, onun parlaq poetik dühasını daha geniş tanıdan dəyərli bir mənbə olacaq. Ədəbiyyat və incəsənət var olduqca Füzuli irsi daim ehtiramla oxunacaq və araşdırılacaq".

1140 səhifəlik bu nəşrə Füzuli haqqında və ya ona həsr olunmuş 220-dən çox ədəbi əsər - 186 şeir, 7 poema, 13 pyes, 13 hekayə, 2 roman, eləcə də Orta əsrlərdən bəri Füzuli əsərlərinə çəkilmiş miniatür illüstrasiyalar da daxil olmaqla, 100-ə yaxın milli və beynəlxalq rəssam tərəfindən yaradılmış 226 portret və rəsm əsəri daxil edilib.

Layihənin dəyəri təxminən 71min AZN-dir (41 min 700 dollar) və əsasən məzmunun toplanmasını və çap xərclərini əhatə edir. Layihənin icraçısı Azərbaycan Dövlət Nəşriyyatı - "Azərnəşr"dir. Kitab Azərbaycanın aparıcı kitabxanalarına, müvafiq akademik və tədqiqat institutlarına, eləcə də universitetlərə BP-nin hədiyyəsidir.

*"Azərbaycan"*

# "Yaşıl avtomobil"ə kütləvi keçmək üçün...

### ELEKTROMOBİLLƏRƏ XİDMƏT EDƏN İNFRASTRUKTURUN SAYI ARTIRILMALI, COĞRAFİYASI GENİŞLƏNDİRİLMƏLİDİR

**Azərbaycan neft-qaz ölkəsidir və dövlətin əldə etdiyi gəlirlərin bir hissəsi bu sektorda formalaşır. Ancaq Azərbaycan həm də "yaşıl enerji"yə keçiddə öndə gedənlər sırasındadır, baxmayaraq ki, əksər neft-qaz ölkələri öz hidrogen ehtiyatlarını satmaqda daha çox maraqlıdırlar.**

Prezident İlham Əliyev həmişə iqtisadiyyatda yeni texnologiyaların tətbiqinə üstünlük verib. Ölkəmizdə yüksək və tullantısız texnologiyaların tətbiq olunduğu texnoparklar və sənaye məhəllələrinin yaradılması da məhz dövlət başçısının təşəbbüsüdür. Digər örnək isə işğaldan azad edilən ərazilərdə tikilən su-elektrik stansiyalarıdır. Bundan əlavə, regionda xarici şirkətlərlə iri günəş və külək-elektrik stansiyalarının tikilməsi barədə razılıq əldə olunmuşdur. Abşeron yarımadasında "yaşıl enerji" istehsal edən stansiyaların tikilməsi unudulmur. Bir sözlə, Azərbaycan alternativ enerjiyə sürətlə keçid edən ölkədir. Belə olmasaydı, COP29-un Bakıda keçirilməsinə dünya ölkələri yekdilliklə razılıq verməzdi.

Məlum olduğu kimi, Prezident İlham Əliyevin apardığı müstəqil xarici siyasəti həzm edə bilməyən xarici qüvvələr var. Onlar hər fürsətdə ölkəmizdə görülən mütərəqqi işlərə kölgə salmaq istəyirlər. COP29-un Bakıda keçirilməsinə qarşı da həmin qara qüvvələr anti-Azərbaycan təbliğatına başlamışdılar. Bu bədxahlara cavab olaraq Prezident İlham Əliyev Azərbaycanın dünyada neft hasilatında 0,7, qaz hasilatında isə 0,9 faiz paya sahib olduğunu bildirərək demişdir: "Bu, Tanrının bəxş etdiyi hədiyyədir. Hər bir təbii sərvət - istər neft, qaz, külək, günəş, qızıl, gümüş və mis - bunların hamısı təbii sərvətlərdir. Ölkələr onların olmasına görə günahlandırılmalı və bazarda onlara tələbatın olması səbəbindən onları bazara çıxardıqlarına görə suçlanmalı deyillər. İnsanlara onlar lazımdır. Bir sözlə, mesajım belədir. COP29-un sədri kimi, əlbəttə, biz "yaşıl keçid"in güclü carçısı olacağıq və bunu edirik, lakin eyni zamanda biz realist olmalıyıq".

COP29-dan sonra da Azərbaycanda ətraf mühitin qorunması istiqamətində tədbirlər əvvəlki templə davam edir. Belə tədbirlərdən biri də ölkəmizdə elektromobil sektorunun inkişafına geniş meydan verilməsidir. Bakıda keçirilən Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiyanın "Fiziki infrastruktur" işçi qrupunun "Ekoloji təmiz və təhlükəsiz nəqliyyat vasitələrinin dövriyyəsinin stimullaşdırılması və infrastrukturunun təkmilləşdirilməsi" altqrupunun bu il üçün prioritet vəzifələrinə həsr olunmuş iclasında bu məsələ geniş şəkildə müzakirə olunmuşdur. Məqsəd cari ilin birinci yarısında Azərbaycanda elektromobil və hibrid avtomobillərlə bağlı maliyyələşmə və infrastrukturun təkmilləşdirilməsi üzrə hökumətə təkliflər təqdim etmək idi.



Dövlət tərəfindən elektromobil və hibrid avtomobillərinin ölkəmizə idxalı stimullaşdırıldığı üçün avtomobil parkımızda həmin nəqliyyat vasitələrinin sayı yüksək templə artır. Azərbaycanda indiki halda ümumi minik avtomobillərinin sayı təqribən 1,6 milyondur. Elektromobillərin sayı cari ilin yanvar ayının əvvəlinə olan göstəricilərə görə, təxminən 6 min, hibrid avtomobillərin sayı isə 69 min ətrafındadır. Halbuki bir neçə il əvvəl həmin rəqəmlər, ümumiyyətlə, statistikaya gəlmirdi. Amma bu da azdır və tədbirlər davam etməlidir. Bunun üçün ilk növbədə mükəmməl infrastruktur yaradılmalıdır. Hazırda Azərbaycanda ekoloji təmiz nəqliyyat vasitələri üçün infrastrukturun genişləndirilməsi çərçivəsində 12 sahibkar və "Azərişıq" ASC tərəfindən 195 məntəqədə 430 elektrikdoldurma cihazı quraşdırılıb. Amma onların sayı daha çox və coğrafiyası daha geniş olmalıdır ki, avtomobil almaq, yaxud avtomobilini dəyişmək istəyən şəxs seçimini elektromobil və ya hibrid avtomobilin xeyrinə etsin. Elə hökumətə təqdim ediləcək təkliflərin məğzi də bu olacaq.

*Rüstəm KAMAL,*
*"Azərbaycan"*



# Vətən deyəndə...



**Tarix yazan oğullar**

# Ana qəlbi

**Valideynlər övladları arasında fərq qoymazlar. Eyni qayğı, eyni sevgi və əziyyətlə böyüdürlər onları. Ancaq gəlin etiraf edək ki, ailədə sonbeşik övladın yeri bambaşqadır.**

Mircəfər kişinin ailəsində də Mirsədi belə bir məhəbbətlə sevilirdi. Fərqli uşaq idi, məqsədyönlüydü, çalışqan idi. Valideynlərini xırda bir hərəkəti ilə məyus etməyə qıymazdı.

Mircəfər kişi onun haqqında keçmiş zamanda danışa bilmir:

- Şəhidlik anlayışı çox müqəddəsdir. Torpaq, vətən, xalq yolunda özünü qurban vermək ölüm deyil, ölümsüzlükdür, əbədi həyatdır. Bu fikirlə yaşadığım üçün Mirsədini həmişə yanımda hiss edirəm. Onun körpəliyi, gəncliyi, orduda xidmət etdiyi günlər hər an xəyalımda canlanır. Bu xatirələr indi ömrümün mənasıdır, həyatda mənə güc verən, yaşadan amildir.

Ana ürəyində xatirələr daha çoxdur. Səadət xanım deyir:

- Hara getsə, körpə uşaq kimi yanıma tələsirdi. Mirsədi vaxtının çoxunu evimizdə keçirməyi xoşlayırdı. Çünki bilirdi ki, qapımızdan içəri girməyincə, rahat olmuruq. O isə heç vaxt bizi incitmək istəmirdi. Deyirdi, ana, həmişə üzün gülsün, onda evimiz işıqlı olur. Otağından çoxlu bayraq asmışdı, idmanla məşğul olurdu ki, boyu uzansın. Özünü hərbçi həyatına hazırlayırmış balam... Biz bunlardan xəbərsiz idik. Onun hərəkətlərinə adi uşaq marağı kimi baxırdıq.

Bu hazırlıq uşaq marağından irəli gəlmirdi. Umudlu həsrətindən yaranırdı. Heç zaman Umudlunu görməyən bir uşaq özünü düşmənlə mübarizəyə hazırlayırdı.

İndi Sərsəng su anbarının sahilində yerləşən, Ağdərənin Umudlu kəndinə gedən yolda bu azad kəndin digər şəhidləri ilə yanaşı, onun - Mirsədi Bağırlının da portreti vurulub. Bu yerlərə ayaq basanları ilk olaraq onlar qarşılayır, məğrur baxışları ilə olub-keçənləri xatırladırlar. Xatırladırlar ki, tarixboyu dəfələrlə erməni vandalizminin qurbanı olan umudlulular bir daha məğlub olmasınlar.

Mircəfər kişi bir neçə dəfə doğma kəndində olub, ata yurdunu ziyarət edib. Bu hisslər nə qədər sevincli olsa da, qəlbindəki kədəri özündən uzaqlaşdıra bilməyib. Axı o, Mirsədiyə söz vermişdi ki, onlar bu kəndə birlikdə ayaq basacaqlar.

Səadət xanım isə hələ də Umudluda olmayıb. Səbəbini soruşduqda dedi:

- Mirsədi bu günləri çox gözləmişdi. Qismət olmadı. Onsuz o yerlərə getməkdə çətinlik çəkirəm. Təsəllim bircə budur ki, indi onun da, bütün şəhidlərimizin də ruhu şaddır. Başladıqları, uğrunda can verdikləri iş yarımçıq qalmadı. Torpaqlarımız bütövləşdi. Şəhidlərimizin qisası alındı.





Mirsədi Bağırlı son döyüşə gedərkən telefonda atasına "haqqını halal elə" demişdi. Həmin gün - oktyabrın 9-da Azərbaycan Ordusunun Sərhəd Qoşunlarının döyüşçüləri Cəbrayıl uğrunda gedən savaşa qatılacaqdılar. Onlar üç dost olublar - hərbi hissənin ən güclü snayperçiləri - Əlizamin Ramazanlı, Əkbər Mustafayev və Mirsədi Bağırlı. Əlizaminlə Əkbəri ayırıb Hadrut istiqamətinə göndərdilər, Mirsədi isə Sarıcalı kəndinin azad olunmasında iştirak etdi. Döyüş yoldaşları deyirlər ki, atası ilə telefon söhbətindən sonra Mirsədinin üzündə qəribə bir rahatlıq hiss olunurdu. Yoldaşlarına da deyib ki, atamdan halallıq almışam.

Bu savaş ölüm-dirim döyüşü idi. İgidlərimiz hər qarış torpağımızı qanları bahasına azad edirdilər. Təəssüf ki, həmin döyüşdə namərd gülləsi Mirsədinin məhəbbətlə dolu gənc ürəyini susdurdu. Üç gün ailəsi ondan xəbər tuta bilmədi.

Mirsədi anasının ürəyini nə qədər qorusa da, vətən, torpaq sevgisi bu hisslərdən üstün oldu. O, döyüş yolunu seçib, uşaqlığından özünü buna hazırladı. Hələ müddətli həqiqi hərbi xidmətdə olarkən - 2020-ci il avqustun 17-18-də Azərbaycan-Ermənistan dövlət sərhədinin Qazax rayonu sahəsində Babaqar istiqamətində gedən hərbi əməliyyatda iştirak etdi. 2020-ci il yanvarın 28-dən gizir hərbi rütbəsində hərbi xidmətini başa vurduqdan sonra həmin il martın 30-dan Dövlət Sərhəd Xidmətinin xüsusi təyinatlı qrupunun sıralarında snayperçi olaraq müddətdən artıq xidmətə başladı.

Deyirlər ki, kursu bitirdikdən sonra ailəsi bu münasibətlə qurban kəsib, müqəddəs ocaqda hərə bir niyyət tutub. O isə bildirib ki, torpaqlarımızın işğaldan azad olunması ən böyük arzusudur, bu yolda şəhid olmağa da hazırdır. Dediyi kimi də oldu.

Anası deyir ki, son dəfə Füzulidə Əlibəyli məscidində görüşüblər: "Mirsədi sanki yatmışdı və o, yuxuda olarkən məğrur görünürdü. Bunu sözlə ifadə etmək çətindir. O əmin idi ki, ordumuz qalib gələcək, əmin idi ki, qələbə yaxındadır, o, niyyətinə, məqsədinə çatmışdı, ruhu rahatlıq tapmışdı". "Mirsədi belə istəmişdi" deyir ana. - "Biz də olanlara yalnız şükür edirik".

Ana bu sözləri deyir, ancaq ürək dözmür. Səadət ananın da ürəyi baş verənlərə tab gətirmədi. Dövlətimizin, "Yaşat Fondu"nun, xeyirxah insanların vaxtında köməyi və həkimlərin operativ müdaxiləsi olmasaydı, xatirələrlə dolu bu ürək vaxtsız susardı. Qardaş Türkiyədə ana ürəyini yaşatmaq üçün həkimlər çox çalışdılar və bu işi bacardılar - Səadət ananı həyata qaytardılar.

Hazırda Bərdənin Mehdixanlı kəndində yaşayan şəhid ailəsini ziyarət edənlərin ardı-arası kəsilmir. Tərtər Rayon İcra Hakimiyyətinin başçısı Müstəqim Məmmədov da əməliyyatdan sonra Səadət ana ilə görüşüb, vəziyyəti ilə maraqlanıb.

Mircəfər kişi deyir ki, həm Tərtərdə, həm də Bərdədə bir neçə məktəbdə Mirsədi Bağırlının adını daşıyan sinif otaqları var. Ailə üzvləri tez-tez şagirdlərin qonağı olur, onun vətənpərvərliyindən danışır, qısa, şərəfli ömrünün xatirələrini yada salırlar. Bu yaxınlarda isə ata onun son döyüş yerində - Cəbrayıl rayonunun Sarıcalı kəndində olub və burada Mirsədi Bağırlının adı həkk edilmiş mərmər lövhənin açılışı mərasimində iştirak edib.

Mircəfər kişi deyir:

- Balalarımızın azadlıq uğrunda qan tökdükləri yerlər bu gün tikilir, qurulur, abadlaşır. Düşmənin xarabalığa çevirdiyi şəhər və kəndlərimizə yeni həyat qayıdır. İnsanlar indi orada rahat yaşayırlar. Bu, bizim yaralı qəlbimizi ovundurur. Dövlətimizə, xalqımıza minnətdaram ki, şəhidlərimizin xatirəsini daim uca tuturlar.

***Svetlana BAĞIROVA,***
***"Yeni Tərtər" qəzetinin redaktoru***

**Vətənpərvərlər**

# "Ürəyimi Qarabağda qoyub getmişəm"

**Aslanın erkəyi, dişisi olmur, cəsur, qorxmaz ürəyi olur... Gülbəniz də aslan ürəkli, cəsur bir xanımdır. Hansı səngərə gedirdimsə, bu fədakar xanımı orada görürdüm. Döyüşçüləri başına toplayıb onlara ürək-dirək verir, döyüşə ruhlandırırdı. Gözündə qorxu yox idi... Əsgərlərimiz onu özlərinin qız qardaşı bilirdilər... Gülbəniz olan yerdə döyüş ruhu var idi. Eşidəndə ki, hərbi jurnalist Gülbəniz vətənə dönüb, onunla görüş keçiriləcək, çox sevindim...**

Polkovnik Şair Ramaldanov nitqinə bir qədər ara verdi. Üzünü Gülbəniz Arifqızına tutaraq sözünü davam etdirdi: "Səni təbrik edirəm. Sənə gözaydınlığı verirəm. Şükür ki, işğal olunmuş torpaqlarımız düşməndən azad edildi. İtirdiklərinin yerini doldurmaq mümkün olmasa da, ata yurdun Füzulini, bütövlükdə Qarabağı tam azad edə bildik".

Bu günlərdə 7 il Birinci Qarabağ müharibəsinin dəhşətlərini yaşamış, səngərdə əsgərlərlə çiyin-çiyinə dayanıb Azərbaycan həqiqətlərini qələmi ilə dünyaya çatdıran, ilk məhəbbətini Şəhidlər xiyabanında torpağa tapşıran Gülbəniz Arifqızı ilə görüş keçirilirdi. Gülbəniz Arifqızı Azərbaycanın ilk qadın hərbi jurnalistlərindən biridir. Birinci Qarabağ müharibəsində döyüş meydanlarında qələmini silaha çevirib qeyrətli oğullarımız ilə səngər yoldaşı olub. O, igidlərimizin göstərdiyi qəhrəmanlıqları tarixin yaddaşına həkk edib.

Gülbəniz Arifqızı 1961-ci ildə Horadiz şəhərində anadan olub. 1978-ci ildə Sərdarov adına orta məktəbi bitirib.

1982-1987-ci illərdə İnşaat Mühəndisləri İnstitutunun Sənaye və mülki tikinti fakültəsini bitirən G.Arifqızı təyinatla Azərbaycan Dövlət Baş Layihə İnstitutunun 2-ci emalatxanasında mühəndis kimi əmək fəaliyyətinə başlayıb. Düşmənlərimiz Qarabağı qanlı döyüş meydanına çevirəndə Gülbəniz Arifqızı da əyninə hərbi paltar geyinib...

Əməkdar jurnalist Zenfira Məhərrəmovanın xatirələri: "Qarabağ hadisələrinin ilk vaxtları idi. "Bakı" qəzetində işləyirdim. Qapı döyüldü, otağıma bir qız girdi. İlk sözü bu oldu: "Jurnalist deyiləm. Doğulduğum torpaqlara getmişdim, evdə qərar tuta bilmədim. Döyüş zonasına getdim. Torpaqlarımızın keşiyində duran oğullarımızın vətən sevgisindən yazmışam". Gülbəniz mənə əlyazmalarını verib getdi. Onun yazılarını oxuyarkən hər kəlmənin, hər sətrin dil açıb danışdığını hiss etdim. Böyük Vətən sevgisini, ürək yanğısını gördüm. Beləcə, Gülbənizlə dostluğumuz başladı".

Gülbəniz Arifqızı 1992-ci ilin əvvəlindən "Ordu" qəzetində, sonra isə "Ədalət" qəzetində fəaliyyət göstərib. 1994-cü ilin əvvəllərindən "Azərenerji" Səhimdar Cəmiyyətində mətbuat katibi, eyni zamanda o təşkilatın "Azərbaycan işıqları" qəzetinin redaktor müavini olub. 1991-ci ildən hərbi jurnalist kimi Füzuli, Beyləqan, Agdam, Cəbrayıl, Qubadlı, Xocavənd rayonlarında olub. Radionun "Ön cəbhəyə doğru" və "Ana" proqramlarında döyüşən əsgərlərdən götürdüyü müsahibələri gedib.

2006-cı ildə ilk kitabını "Müharibənin yolları ürəyimdən kecir" və 2008-ci ildə "Əsirlikdə qalan kəndim" kitabını yazıb. "Qızıl qələm" mükafatına layiq görülüb.

1997-ci ildən Amerikada yaşayan həmyerlimiz orada ilk dəfə Azərbaycandan TV proqramı hazırlayıb. Gülbəniz Arifqızı Kaliforniyada nəşr olunan "Azərbaycan qadınlarının səsi" dərgisinin rəhbəri, Amerika-Azərbaycan Qadınlar Cəmiyyətinin sədridir.

Keçmişini göz yaşı ilə xatırlayan Gülbəniz Arifqızı deyir: "Həyatımın ən gözəl anlarını qayğısız yaşamaqda deyil, döyüş bölgələrində keçirdim. Soyuq səngərlər, ümid istəyən yaralılar, imkansız əhali… Yadımdadır, bir dəfə Füzuli istiqamətində ağır döyüşlər gedirdi. Mən də orada idim. Çadırdan hazırlanmış tibb məntəqəsinə ardıcıl yaralılar daşınırdı. Orada yaralılara ilk tibbi yardım göstərilib, sonra xəstəxanalara göndərilirdi. Çöhrəsində çox məzlum bir ifadə olan gənc, ağır bir yaralı vardı. Yarası çox dərin, yaşamasına ümid çox az idi. Qorxu qarışıq, iniltili bir səslə "bacı, qoyma mən ölum" dedi. Onun çöhrəsi hələ də gözlərimin qarşısındadır. Çox şükür ki, şəhidlərimizin qanı yerdə qalmadı. Çox şükür ki, indi Amerikada da ürəklə, qürurla "Qarabağ Azərbaycandır!" deyə bilirik.

Gülbəniz xanım deyir ki, ABŞ-yə gedəndə orada ömürlük qalmaq fikrində deyildi: "Bir küncə çəkilib o qədər ağladığım vaxtlar olub ki... Axı xaricə gedənlərin heç də hamısı yağ-bal içində yaşamır. Qürbətin də öz dərdləri var. Bir də görürsən ürəyim elə darıxır ki, az qalıram quş olub, uçam vətənə.



Müharibədə gördüyüm dəhşətləri, həyəcanları xaricdə uzun müddət unuda bilmədim. Heç nə adiləşmədi. Əksinə, getdikcə dərinləşdi. Mən vətəndə arxamda çox dərdlər qoyub getmişdim ABŞ-yə. Vətən, valideyn itkisi və sevgi itkisi. Böyük məhəbbətimi Şəhidlər xiyabanında dəfn edib getmişdim. O, bizim ilk Milli Qəhrəmanımız Mehdi Abbasov idi. 1991-ci il yanvarın 13-də mənim doğulduğum Füzuli şəhərində döyüşdə həlak oldu..."

Gülbəniz xanım deyir ki, 2004-cü ildə ABŞ-də ailə qurub. 2005-ci il martın 29-da oğlu Dəniz dünyaya gəlib. Amerikada 2005-ci ildən bəri 4 dəfə, Dəniz isə 2 dəfə cərrahiyyə əməliyyatı keçirib. Dəniz Azərbaycanı çox sevir. Məktəbdə sərbəst yazı yazdıranda Dəniz Azərbaycandan yazmışdı. Vətənində özünü şahzadə kimi hiss edir. Fəxrlə qeyd edir ki, anası azərbaycanlıdır.

Hərbi jurnalist Gülbəniz Arifqızı deyir: "Bir zamanlar qələmimi süngüyə çevirib düşmənlə mübarizə aparırdım, indi də yaşam uğrunda "xərçəng" xəstəliyi ilə... İstəyirəm Qarabağa - uşaqlığım keçən Füzuli rayonunun Yal Pirəhmədli kəndinə gedib oraları gəzim, qəhrəman oğullarımızın qanlarını tökdükləri səngərləri ziyarət edim, yarımçıq qalan kitablarımı tamamlayım..."

Tədbirdə çıxış edən Birinci və İkinci Qarabağ müharibəsi iştirakçıları Taleh Əhmədov, Elçin Rəfiyev, İlham Ağalarov Rasim Əbilov və başqaları döyüş yoldaşları Gülbəniz Arifqızı ilə birgə keçirdikləri döyüş xatirələrindən danışdılar.

***Elşən QƏNİYEV,***
***"Azərbaycan"***

# Azərbaycan və Türkiyə HHQ arasında hərbi əməkdaşlıq məsələləri müzakirə edilib

**Azərbaycan ilə Türkiyə arasında imzalanmış "İkitərəfli hərbi əməkdaşlıq proqramı"na əsasən, hər iki qardaş ölkənin Hərbi Hava Qüvvələri (HHQ) nümayəndələrinin iştirakı ilə 15-ci Qərargah danışıqları keçirilib.**

Bu barədə AZƏRTAC-a Müdafiə Nazirliyindən bildirilib. Əvvəlcə Şəhidlər xiyabanı və Türk Şəhidliyi ziyarət edilib. Şəhidlərin xatirəsi dərin hörmət və ehtiramla yad olunub.

Azərbaycan müdafiə nazirinin müavini - Hərbi Hava Qüvvələrinin komandanı general-leytenant Namiq İslamzadə Türkiyə Hərbi Hava Qüvvələri qərargahının Maddi-Texniki Təminat İdarəsinin rəisi general-leytenant Hüseyin Dumanın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.





Qərargah danışıqlarının əhəmiyyətinin xüsusi vurğulandığı görüşdə Azərbaycan və Türkiyə HHQ arasında hərbi əməkdaşlıq məsələləri müzakirə olunub, qarşılıqlı təcrübə mübadiləsinin əhəmiyyəti qeyd edilib, eləcə də maraq doğuran bir sıra məsələlərə dair ətraflı fikir mübadiləsi aparılıb.

Sonra səfər planına uyğun olaraq, Aviasiya təmir zavodunu ziyarət edən Türkiyə nümayəndə heyətinə müəssisənin yaranma tarixi, inkişaf mərhələləri və fəaliyyəti barədə məlumat verilib.

Zavodun istehsalat bölmələrində yaradılan şəraitlə tanış olan qonaqlar burada təmir, modernizasiya və digər prosesləri əyani şəkildə izləyiblər.

Daha sonra Heydər Əliyev adına Hərbi İnstitutda görüş keçirilib. Milli Müdafiə Universiteti rektorunun elm üzrə müavini - Hərbi Elmi-Tədqiqat İnstitutunun rektoru general-mayor Arif Həsənov qonaqlarla görüşərək onları ölkəmizdə görməkdən məmnun olduğunu bildirib.

Qonaqlar institutda yaradılan şəraitlə tanış olublar. Türkiyə nümayəndə heyətinə təhsil müəssisəsi ilə bağlı ətraflı məlumat verilib və ölkələrimiz arasında hərbi təhsil sahəsində görülən işlər və perspektiv planlardan geniş söhbət açılıb.

General-leytenant H.Duman Hərbi İnstitutun "Fəxri qonaqlar kitabı"na ürək sözlərini yazıb.

Plana əsasən, sonda Türkiyə nümayəndə heyəti HHQ-nin "N" hərbi hissəsini ziyarət edib. Qardaş ölkənin nümayəndələrinə hərbi hissənin əsas fəaliyyət istiqamətləri barədə ətraflı məlumat verilib.

# Heydər Əliyev adına Hərbi Liseyin yaradılmasının növbəti ildönümü qeyd olunub

**Əlahiddə Ümumqoşun Ordunun (ƏÜO) Təlim və Tədris Mərkəzində Heydər Əliyev adına Hərbi Liseyin yaradılmasının 21-ci ildönümü ilə əlaqədar təntənəli tədbir keçirilib.**




Müdafiə Nazirliyinin Mətbuat xidmətindən verilən məlumata görə, ƏÜO və ictimaiyyət nümayəndələri, Heydər Əliyev adına Hərbi Liseyin şəxsi heyəti və digər qonaqların iştirak etdiyi tədbirdə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin, ölkəmizin müstəqilliyi, ərazi bütövlüyü və suverenliyi uğrunda şəhid olanların xatirəsi birdəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Heydər Əliyev adına Hərbi Liseyin rəisi vəzifəsini icra edən polkovnik Rəşad Əsgərov qonaqları və şəxsi heyəti salamlayaraq onları liseyin yaradılması günü münasibətilə təbrik edib, müdafiə naziri general-polkovnik Zakir Həsənovun təbrikini şəxsi heyətə çatdırıb.

Əlahiddə Ümumqoşun Ordu komandanı general-mayor Kənan Seyidov çıxış edərək əlamətdar gün münasibətilə kollektivi təbrik edib, onlara fəaliyyətlərində yeni uğurlar arzulayıb. Ulu Öndərin daim qayğı ilə yanaşdığı və xüsusi diqqət yetirdiyi bu tədris ocağının ötən müddət ərzində respublikamızda milli peşəkar hərbçi kadrların hazırlanması sahəsində müstəsna xidmətlər göstərdiyini, cəmiyyətdə hərb peşəsinin nüfuzunun yüksəlməsində və taleyini bu sahəyə həsr edən gənclərin sayının davamlı artmasında əhəmiyyətli rol oynadığını vurğulayıb. Kursantlara Vətənə, dövlətə və Müzəffər Ali Baş Komandana, şərəf andlarına sadiq olmalarını, nümunəvi, nizam-intizamlı xidmət etməyi, fərdi bacarıq və intellektual səviyyələrini daim artırmalarını, komandir-rəis heyətinin əmr və göstərişlərini dəqiq, vaxtında yerinə yetirmələrini tövsiyə edib.

Tədbirdə çıxış edənlər Hərbi Liseyin yaradılması, keçdiyi inkişaf yolu, Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə ordumuzun ərazi bütövlüyümüzün bərpa olunmasında apardığı uğurlu döyüş əməliyyatlarından, qazanılan tarixi qələbələrdən, bu şanlı qələbələrin qazanılmasında Hərbi Liseyi müxtəlif illərdə bitirmiş məzunların göstərdikləri qəhrəmanlıq və şücaət nümunələrindən danışıblar.

Sonra hərbi təhsil müəssisəsində yaradılan təlim-tədris və məişət şəraiti ilə bağlı videoçarx təqdim olunub. ƏÜO-nun Təlim və Tədris Mərkəzinin və Hərbi Liseyin yaradıcı kollektivinin iştirakı ilə milli rəqslər, vətənpərvərlik mahnıları ifa edilib. Sonda xidməti vəzifələrinin yerinə yetirilməsində fərqlənmiş hərbi qulluqçular və mülki işçilər mükafatlandırılıblar.

## Dünya olduğu kimi

# Futuristik şəhərin inşasına başlanılıb

**Səudiyyə Ərəbistanında "The Line" layihəsinin tikintisinə start verilib. 170 km uzunluğunda olan futuristik şəhərin ilk hissəsi - "Hidden Marina" 2030-cu ilə qədər tamamlanacaq.**



2034-cü ildə keçiriləcək futbol üzrə dünya çempionatına evsahibliyi edəcək, "Hidden Marina"nın uzunluğu 2,5 km, hündürlüyü 500 metr, tikinti sahəsi isə 21 milyon kvadratmetrdir.

Üçmodullu blokdan ibarət və güzgü fasadlara malik tikintinin ilk mərhələsi 200 min sakin üçün nəzərdə tutulub. "Hidden Marina" 80 min yaşayış mənzili, 9 min hotel otağı, ticarət və biznes mərkəzləri, məktəblər, yanğınsöndürmə məntəqələri və polis bölmələri də daxil olmaqla bütün zəruri infrastruktura malik olacaq. İnkişaf etmiş şəhər planlaması sayəsində əsas obyektlərə piyada cəmi 5 dəqiqə ərzində çatmaq mümkün olacaq, rəqəmsal idarəetmə və elektrik nəqliyyatı şəhərdaxili hərəkəti təmin edəcək. Rəqəmsal idarəetmə sistemləri həm təhlükəsizliyi təmin edəcək, həm də şəhər infrastrukturunun səmərəli fəaliyyətini optimallaşdıracaq. "Hidden Marina"ya ilk sakinlərin 2030-cu ildə köçməsi planlaşdırılır.

Tikintisində 140 min işçinin fəaliyyət göstərdiyi layihəyə 140 milyard dollar investisiya qoyulacaq. Bu layihə Səudiyyə Ərəbistanının daha genişmiqyaslı planlarının yalnız bir hissəsidir. "The Line" ilə yanaşı, dünyanın ən hündür göydələni olacaq "JEC Tower"in, nəhəng "Mukaab" kompleksinin, eləcə də bir çox yeni kurort və mehmanxananın tikintisinin başa çatdırılması planlaşdırılır.



## Yerin daxili nüvəsinin forması dəyişir

**Amerikalı geofiziklər qrupu Yerin ən dərin geosferi olan və təxminən 1200 km radiusa malik daxili nüvəsində struktur dəyişikliklərinin sübutlarını aşkar ediblər.**

Bu kəşf alimlərin uzun illərdir planetin mərkəzində nələrin baş verdiyi ilə bağlı mübahisələrə aydınlıq gətirsə də, nüvədəki dəyişikliklərin günün uzunluğuna, Yer kürəsinin maqnit sahəsinə və digər proseslərə necə təsir etdiyinə dair yeni suallar doğurur. Alimlər bu kəşfi Cənubi Atlantikada yerləşən Cənubi Sendviç adalarından gələn seysmik dalğaları təhlil edərkən ediblər.

Bu dalğalar Yer kürəsinin əks tərəfində, Alyaska və Kanadada yerləşən seysmoqraflar tərəfindən qeydə alınıb. Müşahidələr göstərib ki, 2004-2008-ci illər arasında bəzi seysmik dalğaların siqnalları dəyişib. Bu dəyişikliklərin səbəbi dalğaların qısa müddətlik daxili nüvəyə nüfuz etməsi və onun formasının dəyişməsi olub. Alimlər həmin dövrdə ilk dəfə daxili nüvənin deformasiyaya uğradığını müşahidə ediblər. Planetimizin daxili nüvəsi xarici nüvədən hələ tam öyrənilməmiş, təxminən 5100 km qalınlığında bir qat ilə ayrılır.

Əvvəlki seysmik tədqiqatlar göstərib ki, əsasən metaldan ibarət olan daxili nüvə dəmir və nikel qarışığından təşkil olunmuş ərimiş xarici nüvə daxilində fırlanır. Bununla belə, daxili nüvənin fırlanma sürəti planetin qalan hissəsinin fırlanma sürətindən bir qədər fərqlidir. Bəzi alimlər hesab edirlər ki, seysmik siqnallardakı dəyişikliklər nüvənin fırlanması ilə deyil, daxili və xarici nüvə arasındakı sərhəddə baş verən fiziki dəyişikliklərlə bağlı ola bilər. Müşahidələr göstərib ki, bəzi seysmik siqnal dəyişiklikləri yalnız nüvənin fırlanması ilə izah edilə bilər, lakin bəzi nümunələr bu yeni hipotez ilə daha yaxşı uyğunlaşır.

## 3500 illik firon məzarı

**Misirin cənubundakı Luksor şəhərində Qədim Misirin 18-ci Firon sülaləsinə aid sonuncu fironu II Tutmosun məzarı tapılıb.**



Rəsmi açıqlamaya görə, məzar Luksorun qərb hissəsində Krallar vadisindən təxminən 2,4 kilometr aralıda, Taybe dağında yerləşən bir ərazidə aparılan qazıntılar zamanı aşkar edilib. Məzara ilk giriş 2022-ci ildə tapılsa da, əsas keçid son qazıntılar nəticəsində üzə çıxarılıb.

Misirin Turizm və Qədim Abidələr Nazirliyi bunun 1922-ci ildə Kral Tutanhamonun məzarının tapılmasından bəri kəşf edilən ilk kral məzarı olduğunu açıqlayıb. Hökmdar qədim sivilizasiya tarixinin ən naməlum simalarından biri hesab olunur.

Bəzi arxeoloqlar hesab edirlər ki, o dövrdə əsl hakimiyyət onun arvadı Hatşepsutun əlində idi. Həyat yoldaşının ölümündən sonra o, ərinə həsr olunmuş bəzi abidələri mənimsəyib və kral kartuşlarında (heroqliflərdəki işarələrdə) onun adını özününkü ilə əvəz edib.

## 2 minillik şəhərin qalıqları



**Arxeoloqlar Londonda yerləşən bir ofis zirzəmisində 2 minillik Qədim Roma bazilikasının qalıqlarını - nəhəng bünövrələr, çaxmaq daşından tikilmiş divarlar və dam kirəmitləri aşkarlayıblar.**

Ehtimal olunur ki, ikimərtəbəli bazilikada sakinlər və qonaqlar üçün açıq həyət də olub. London Arxeologiya Muzeyinin mütəxəssisləri onun şəhər tarixindəki ən əhəmiyyətli tapıntılardan biri olduğunu bildirirlər.

Qeyd etmək lazımdır ki, Qədim Roma Londiniumunun siyasi, ticarət və sosial mərkəzi kimi xidmət edən bazilika şəhərin və onun sakinlərinin həyatına təsir edən mühüm qərarların qəbul edildiyi yer olub. Bazilikanın qalıqları artıq ictimaiyyət üçün açıqdır və onun 2029-cu ilə qədər açılacaq sərginin bir hissəsinə çevrilməsi planlaşdırılır.

## Antarktikada mikroplastik hissəciklər tapılıb

**150 il bundan əvvəl icad edilmiş plastik material bütün dünyaya yayılıb. Tədqiqatçılar plastik hissəcikləri suda, torpaqda, havada və hətta insan orqanizmində aşkar ediblər.**




Yeni araşdırma Yer kürəsinin demək olar ki, hər yerinin plastik çirklənməyə məruz qaldığını sübut edir. Böyük Britaniyanın Antarktika Xidməti tədqiqatçıları Antarktikanın içərilərində yerləşən bəzi düşərgələrin ətrafındakı qarda mikroplastik hissəciklərin izlərini tapıblar.

Qeyd etmək lazımdır ki, tarixdə ilk dəfədir bu qədər uzaq və əlçatmaz ərazilərdə mikroplastik hissəciklərin varlığı təsdiqlənir. Böyük Britaniyanın Antarktika Xidmətinin okean ekoloqu, doktor Klara Mannonun sözlərinə görə, ilkin analizlər göstərir ki, mikroplastik hissəciklər əsasən yerli mənbələrdən qaynaqlanır. Ehtimal olunur ki, bunlar tədqiqatçılar tərəfindən istifadə olunan üst geyimlər, iplər və düşərgə ətrafında təhlükəsiz marşrutları işarələmək üçün qoyulan bayraqlardan yaranmış ola bilər.

Araşdırma çərçivəsində alimlər Cənub qütbünün uzaq bölgələrində yerləşən Union və Şants buzlaqlarındakı üç sahə düşərgəsindən toplanmış nümunələri təhlil ediblər. Əvvəlki tədqiqatlar alimlərin nümunələrdən mikroskopik plastik hissəciklərini əl ilə seçməsinə əsaslanırdı. Lakin yeni araşdırmada daha müasir texnologiya tətbiq edilib. İlk olaraq qar xüsusi filtr kağızı vasitəsilə əridilib. Daha sonra isə yüksəkdəqiqlikli skan texnikası ilə analiz aparılıb.

Tədqiqatın nəticələrinə görə, mikroplastik hissəciklərin qar nümunələrindəki miqdarı 73 ilə 3099 hissəcik arasında dəyişir. Bundan əlavə, tapılan plastik hissəciklərin təxminən 90 faizi 50 mikrometrdən kiçik olub. Alimlər hesab edirlər ki, əvvəlki tədqiqatlar plastik çirklənmənin həqiqi miqyasını aşağı qiymətləndirib. Nəticələr göstərir ki, nümunələrdəki mikroplastik hissəciklərin miqdarı əvvəlki hesablamalardan 100 dəfə çox ola bilər.

*Ülkər XASPOLADOVA,*
*"Azərbaycan"*



# İDMAN



## "Hakimlər zərərimizə qərarlar qəbul edirlər"

**"Zirə"nin baş məşqçisi Rəşad Sadıqov Azərbaycan kubokunun 1/4 finalında "Araz-Naxçıvan"a 0:2 hesabı ilə uduzduqları matçdan danışıb.**



O, görüşdən sonra keçirilən mətbuat konfransında deyib: "Futbolçularıma təşəkkür edirəm. Bu mövsüm keçirdiyimiz ən yaxşı oyunlardan biri oldu. Əllərindən gələni etdilər ki, mərhələni keçən tərəf biz olaq. Hər iki matça görə, mən düşünürəm ki, mərhələni keçməyə yaxın olan tərəf biz idik. Amma rəqib qazandığı 3 penaltidən fərqlənib və mərhələni keçən tərəf oldu. Onları təbrik edirəm və növbəti oyunlarda uğurlar arzu edirəm. Bizim bu oyunda çoxlu yaxşı yarış məqamımız var idi. Onları düzgün təhlil edib, daha da yaxşı formada olmalıyıq. Rəqiblər də bizi təhlil edir, daha yüksək motivasiya ilə oynayırlar, daha böyük qüvvə ilə müdafiə olunurlar. Növbəti oyunlara daha yaxşı hazırlaşmaq vacibdir. Oyunçularıma bir daha təşəkkürümü bildirirəm. Çox sıx qrafikdə oynayırıq. Demək olar ki, hər bir futbolçumuz meydanda əzmkar mübarizə apardı. İkinci hissədə futbolçularım rəqibin üzərində böyük təzyiq yaratdı. Amma qol fürsətlərindən istifadə edə bilmədik. Alınmadı. Bu gün uğur rəqibin tərəfində idi. Belə olan halda məğlubiyyəti həzm edib növbəti oyunlara hazırlaşmalıyıq".

Mütəxəssis hakimliklə bağlı fikirlərini də bölüşüb: "Birinci epizod penaltidir. Düzdür, baxmamışam. Amma oyunun dinamikasından görünürdü. İkinci epizoddan çempionatımızda 50, 100 dənə nümunə gətirərəm ki, bəzən penalti verirlər, bəzən isə yox. Bir neçə klubumuz blokdan istifadə edir. Tuturlar, yıxırlar, boğurlar. Bu gün bizim xeyrimizə belə bir epizod olsaydı, əminəm ki, soyuqqanlı şəkildə şərh edəcəkdilər ki, ikisi də bir-birini tuturdu, mübarizə idi. Belə şeylərə öyrəşmişik. Nədənsə hakimlər mübahisə doğuran epizodlarda çox zaman bizim zərərimizə qərarlar qəbul edirlər. Digər məqamlardan biri də odur ki, birinci hissədə VAR-a baxıldı, hakimlər meydana girdi, pauzalar oldu, amma cəmi 3 dəqiqə əlavə olundu. İlk yarıda ən azı 8-9 dəqiqə pauza oldu. Hakimliyin üzərində çox dayanmaq istəmirəm. Bu gün futbolçularımın oyunundan həzz aldım. Baxımlı, sürətli, kombinasiyalı futbol oynayırdılar. Ona görə bu gün mənim yadımda qalan oyunçularımın performansı və əzmkarlıqlarıdır".

Rəşad Sadıqov "Düşünürsünüz ki, kubokda mübarizəni dayandırmaq çempionatda xeyrinizə ola bilər" sualına belə cavab verib: "Onu düşünmürəm. Sıx qrafik olsa da, oynamağa yetərincə vaxt var. Biz mərhələni keçmək istəyirdik. Olmadı. Xeyirlisi. Köklənəcəyik çempionata. Mənim üçün hər zaman çempionat prioritet olub".

## Cüdoçumuz gümüş medalla kifayətləndi



Azərbaycan cüdoçusu Turan Bayramov Özbəkistanın paytaxtı Daşkənddə keçirilən "Böyük Dəbilqə" turnirində gümüş medal qazanıb. 60 kiloqram çəki dərəcəsində çıxış edən idmançı finalda rusiyalı Ayub Bliyevlə qarşılaşıb. Rəqibinə uduzan T.Bayramov fəxri kürsünün ikinci pilləsinə qalxıb.

Qeyd edək ki, 23 ölkədən 242 cüdoçunun iştirak etdiyi "Böyük Dəbilqə"yə martın 2-də yekun vurulacaq. Azərbaycan turnirdə 3 idmançı ilə təmsil olunur.

## Yarımfinalçılar bəlli oldu



Azərbaycan kubokunda yarımfinal mərhələsinin cütləri müəyyənləşib. Cavab oyunlarından sonra "Neftçi" sonuncu yarımfinalçı olub. "Ağ-qaralar" iki oyunun nəticəsinə görə, "Kəpəz"i mübarizədən kənarlaşdırıblar (2:0, 1:0). "Neftçi" finala gedən yolda "Sabah"la münasibətlərə aydınlıq gətirəcək. Yarımfinalın digər cütündə isə "Qarabağ"la "Araz-Naxçıvan" üz-üzə gələcək.

Yarımfinalın oyunları aprelin 2-də və 23-də keçiriləcək.

## Mourinyo "Qalatasaray"dan təzminat tələb edir

**Türkiyənin "Fənərbağça" klubunun baş məşqçisi Joze Mourinyo "Qalatasaray"a qarşı mənəvi təzminat iddiası qaldırıb. Bu barədə "sarı-lacivərd"li klub məlumat yayıb. Bildirilib ki, Mourinyo onun şəxsiyyətinə və şəxsi hüquqlarına edilən hücum səbəbi ilə "Qalatasaray"dan mənəvi təzminat tələb edir. Təzminatın məbləği 1 milyon 907 min türk lirəsi (təxminən 88 790 min manat) həcmində müəyyən edilib. Məbləğ simvolik məna daşıyır. Belə ki, 1907 "Fənərbağça"nın yaradıldığı ildir.**

İlk olaraq "Qalatasaray" Superliqanın 25-ci turunda "Fənərbağça" ilə keçirilən oyundan sonra ilk olaraq futbolçularının ünvanına təhqiredici ifadələr işlədən Joze Mourinyonun cəzalandırılmasını istəyib. Matçdan sonra təşkil edilən mətbuat konfransında Mourinyo rəqib futbolçularını "meymun"a bənzədib. Bu səbəbdən də "Qalatasaray" portuqaliyalını irqçilikdə ittiham edib.



## "Neftçi"nin baş məşqçisi VAR-la bağlı "od püskürdü"

**"Neftçi"nin baş məşqçisi Samir Abasov Azərbaycan kubokunun 1/4 finalında "Kəpəz"ə 1:0 hesabı ilə qalib gəldikləri oyundan danışıb. O, matçdan sonra keçirilən mətbuat konfransında deyib:**

"Azarkeşlərə təşəkkür edirəm. Bizi yaxşı dəstəklədilər. Həmdə meydançaya baxan insanlar var. Bu oyunda da, "Sumqayıt"la oyunda da çox əziyyət çəkdilər. Məşq meydançalarımızı da təmizləyib, bizə şərait yaratdılar. Başçılarına və işçilərin hamısına təşəkkür edirəm. Allah əziyyətlərini yerdə qoymasın, sağ olsunlar. O qədər belə insanlar var ki, kölgədə qalırlar, amma üstümüzdə böyük əziyyətləri olur. Fürsət düşdükcə də onları qeyd etmək bizim borcumuzdur".

"Hakimin VAR-da epizodu dəyərləndirmək üçün vaxtı oldu. Qərəzdir, yoxsa hakim səhvi" sualına cavabında Samir Abasov deyib ki, bu qərəz deyil, özünü sığortalamaqdır. Hakim kitabı açacaq və buna oxşar epizodlar orada yazılacaq. Kimin qabağına getsə, kitabını açıb göstərəcək. Necə ki yol polisi saxlayır və qaydaları göstərir: "Amma məncə, VAR-ı rədd etmək lazımdır. Bilmirəm, hakim futbol oynayıb, ya oynamayıb. Top ayağımdadır və pas verirəm, şiddət yoxdur. Qərəz də yoxdur, fikrim qol vurmaqdır. Qırmızıdan danışmaq olmaz. VAR çağırsa da, analiz edə bilərsən. Sarı vərəqə ilə söhbət bağlanmalı idi. Dediklərim ağır ola bilər. Sadəcə məntiqlə düşünmək lazım idi. Dedim, məntiqlə düşün və buna görə sarı vərəqə mənə verildi. Məntiqlə düşünsəydi, "qırmızı"



yox idi. Qərəzdi ya deyil, kimə görə edilib bilmirəm. Bu haqda danışmaq istəmirəm. Ümumilikdə VAR sistemindən danışıram, orada bilmirəm kim oturub".

*Hazırladı:*
*Elçin CƏFƏROV,*
*"Azərbaycan"*

# Qərbi Azərbaycan mövzusuna beynəlxalq dəstəyin əldə olunmasında növbəti mühüm uğur əldə edilib

**Qərbi Azərbaycan mövzusunda beynəlxalq dəstəyin əldə olunması istiqamətində növbəti mühüm uğur əldə edilib.**

Asiya Parlament Assambleyasının fevralın 17-21-də Bakıda keçirilmiş sessiyasında qəbul edilmiş yekun sənəddə Qərbi azərbaycanlıların təhlükəsiz və ləyaqətli şəkildə öz doğma yurdlarına qayıtmasına və Qərbi Azərbaycan İcmasının qayıdışla bağlı dialoq çağırışlarına birmənalı dəstək ifadə olunub. AZƏRTAC xəbər verir ki, bu barədə Qərbi Azərbaycan İcmasının açıqlamasında bildirilib.

Qeyd olunub ki, özündə 44 dövlətin parlamentini birləşdirən Asiya Parlament Assambleyasının qərbi azərbaycanlıların qayıdış hüququna dəstək ifadə etməsi bu mövzunun beynəlxalq sülh və insan hüquqları gündəliyinin əsas məsələlərindən biri kimi qəbul olunmasının növbəti mötəbər təsdiqidir.

Qərbi Azərbaycan İcması yekun sənəddə ifadə olunan sözügedən birmənalı dəstəyə görə Azərbaycan Respublikasının Milli Məclisinə və Asiya Parlament Assambleyasının digər üzv dövlətlərinin parlamentlərinə təşəkkür edir.

# *Mark JAFFE:* "Azərbaycan, Türkiyə və Gürcüstanın timsalında tərəfdaşlar tapmışıq"

**"Bugünkü təlatümlü dünyada biz demokratiya, ticarət və ailə dəyərlərinin nə olduğunu bilən tərəfdaşlar axtarırıq. Biz artıq Azərbaycan, Türkiyə və Gürcüstanın timsalında belə dostlar tapmışıq".**

AZƏRTAC gürcü mətbuatına istinadla xəbər verir ki, bu sözləri Nyu Yorkda Gürcüstan, ABŞ, Türkiyə və Azərbaycan arasında işgüzar əlaqələrin dərinləşdirilməsinə həsr olunmuş tədbirdə Nyu York Ticarət Palatasının prezidenti Mark Jaffe söyləyib. Mark Jaffe cari ilin ticarət əlaqələrinin inkişafı və sülhün bərqərar olması üçün uğurlu il olacağına ümid etdiyini bildirib.

"Biz artıq Gürcüstanda belə bir dost, eləcə də Türk-Amerika Palatasından və Azərbaycandan yaxşı dostlar tapmışıq. ABŞ-la birlikdə dördümüz də bəyan edirik ki, biz birlikdə biznes edə bilərik və bizə müharibələr lazım deyil. 2025-ci ilin əvvəlində ABŞ-da artıq yeni administrasiya var və Nyu Yorkda mühüm seçkilər yaxınlaşır. Biz daha çox iş görmək, sülh yaratmaq, ticarət əlaqələrini inkişaf etdirmək üçün çox uğurlu və məhsuldar bir il olacağını düşünürük", - deyə o vurğulayıb.


# OXUCULARIN VƏ MƏTBUATYAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə*

*2025-ci il üçün abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| "Azərpoçt" MMC | (012) 598-49-55, (051) 225-02-13 |
| "Azərmətbuatyayımı" ASC | (012) 441-19-91, (050) 322-33-17 |
| "Qaya" firması | (012) 566-77-80, (050) 214-40-53 |
| "Region Press" MMC | (055) 316-79-01, (050) 316-79-01 |
| "Səma-M" MMC | (012) 594-09-59 |
| "Ziya" LTD | (012) 497-76-96, (050) 306-77-22 |
| "Pressinform" MMC | (012) 598-49-52, (070) 340-01-00 |
| "City press" MMC | (055) 819-09-26 |

**1 illik -187,20** (yüz səksən yeddi manat iyirmi qəpik) **manat**
**6 aylıq - 93,60** (doxsan üç manat altmış qəpik) **manat**
**3 aylıq - 46,80** (qırx altı manat səksən qəpik) **manat**
**1 aylıq - 15,60** (on beş manat altmış qəpik) **manat**




## Hörmətli oxucular!

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya* ***(Tel.: (012) 539-59-33)*** *zəng vura bilərsiniz.*




# Bilmək istəyirəm

*Xalamın əri vəfat edib. Mərhum pensiyaçı idi, eyni zamanda fərdi təqaüd alırdı. Xalam isə hələ pensiya yaşına çatmayıb. Öyrənmək istəyirəm, o, ərinin pensiyası və fərdi təqaüdünü ala bilər? Ümumiyyətlə, vəfat etmiş şəxsin pensiyası, həmçinin fəxri adlara və ya xüsusi xidmətlərinə görə təqaüdü hansı hallarda ailə üzvlərinə verilir? Bu məsələ ilə bağlı geniş şərh verməyinizi xahiş edirəm.*

***Səbinə QASIMOVA,***
***Bakı şəhəri***

✓ Sualınızla bağlı bildiririk ki, qeyd olunan məsələlər "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının Qanunu (bundan sonra - Qanun), "Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin fərmanı (bundan sonra - fərman) və "Sosial ödənişlərin təyin edilməsi, ödənilməsi, ödənişinin dayandırılması və sosial ödəniş işlərinin mühafizəsi Qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının Nazirlər Kabinetinin qərarı (bundan sonra - qərar) ilə tənzimlənir.

"Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının Qanunu ilə ailə başçısını itirməyə görə pensiya ailə başçısını itirmiş və əmək qabiliyyəti olmayan ailə üzvlərinə təyin edilir. Bu pensiya növü vəfat etmiş şəxsin əmək pensiyası hüququ olduğu halda onun ailə üzvlərinə verilir:

**Övladları:**

- 18 yaşına çatmamış;
- 18 yaşına çatanadək əlilliyi müəyyən olunmuş 18 yaşından yuxarı sağlamlıq imkanları məhdud;
- Təhsil müəssisələrinin əyani şöbəsində təhsil alan, lakin ən çoxu 23 yaşına çatanadək.

**Ata, ana, ər və ya arvad:**

- Pensiya yaşına çatmışdırsa;
- Orqanizmin funksiyalarının 61-100 faiz pozulmasına görə əlilliyi müəyyən edilmişdirsə.

**Digər ailə üzvləri:**

- Yaşından və əmək qabiliyyətindən asılı olmayaraq, valideynlərdən biri və ya ər (arvad), yaxud baba, nənə, qardaş, bacı vəfat etmiş və ya həlak olmuş ailə başçısının 8 yaşına çatmamış uşaqlarına, qardaşlarına, bacılarına, nəvələrinə baxırsa və işləmirsə.

Adıçəkilən qanunun 14.1.2-ci maddəsinə əsasən, vəfat etmiş ailə başçısının (xalanızın əri) öhdəsində olan (vəfat edənin tam təminatında olan və ya ondan özlərinin yaşayışı üçün daimi və əsas vəsait mənbəyi kimi kömək alan) arvadının (xalanızın) ailə başçısını itirməyə görə əmək pensiyası hüququ vardır. Bunun üçün pensiya yaşına çatması tələb olunur. Sualınızda bildirdiyiniz kimi, xalanız pensiya yaşına çatmadığı üçün ona yalnız həmin yaş həddinə çatdıqdan sonra ailə başçısını itirməyə görə əmək pensiyası avtomatik təyin ediləcək. Belə ki, qanunun 31-ci maddəsinə əsasən, 2019-cu il yanvarın 1-dən etibarən əmək pensiyaları Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən avtomatlaşdırılmış qaydada təyin olunur.

Onu da əlavə edək ki, "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikası Qanununun 5.1-ci maddəsinə əsasən, müxtəlif pensiya hüququ olan şəxsə onun arzusu ilə yalnız bir pensiya təyin edilir. Bu səbəbdən pensiya yaşına çatdıqda xalanızın aşağıdakı iki növ pensiyadan birini seçmək hüququ yaranacaqdır:

1. Əgər xalanızın sığorta stajı və pensiya kapitalı yetərli olarsa, ona yaşa görə öz əmək pensiyası təyin ediləcəkdir;
2. Bununla belə, əgər xalanız pensiya yaşına çatdıqda ona təyin ediləcək yaşa görə əmək pensiyasının məbləği aşağı olarsa və ya ümumiyyətlə, pensiya almaq hüququ yaranmasa, bu halda o, ailə başçısını itirməyə görə pensiya hüququndan istifadə edə biləcəkdir.

Ailə üzvlərinin onun fərdi təqaüdündən yararlanması məsələsinə gəldikdə isə qeyd olunmalıdır ki, Nazirlər Kabinetinin yuxarıda adıçəkilən qərarı ilə təsdiq edilmiş qaydaların 8.1.2.2-ci bəndinə uyğun olaraq, şəxsin vəfat etməsi ilə ona təyin edilən təqaüdün ödənişi dayandırılır. Qaydalarda fərdi təqaüd almış şəxslə qohumluq əlaqəsi olan hər hansı şəxsin fərdi təqaüdü almaq hüququ müəyyənləşdirilməyib.

Beləliklə, xalanız yalnız pensiya yaşına çatdıqdan sonra ərinin ölümü ilə bağlı ona ailə başçısını itirməyə görə əmək pensiyası təyin edilməsi hüququna malikdir. Vaxtilə ərinin aldığı fərdi təqaüdə münasibətdə isə bu cür analoji hüququ qanunvericiliklə təsbit edilməmişdir. Belə ki, fərdi təqaüd və fəxri adlara görə təqaüdlər xüsusi xidmətlərə və ya nailiyyətlərə görə fərdi qaydada təyin edilir və şəxsin vəfatından sonra ailə üzvlərinə keçmir.

*"Lada" markalı avtomobil sahibiyəm. Mütəmadi olaraq yolda DYP əməkdaşları məni dayandırıb gah avtomobilin önünün yuxarı, gah da arxasının aşağı olmasını iddia edirlər. Nəqliyyat vasitəsindəki qanunazidd hər hansı müdaxiləni yerində müəyyən etmədən, protokol tərtib etmədən avtomobili duracağa (cərimə meydançasına) aparmaq istəyirlər. Avtomobilə heç bir müdaxilə edilmədiyini bildirsəm də, buna məhəl qoymurlar. Sualım bir neçə bənddən ibarətdir:*

- *DYP əməkdaşları avtomobildə konstruksiya dəyişikliyini və ya hər hansı nasazlığı nəyə əsasən, necə və harada müəyyən etməlidirlər?*
- *DYP əməkdaşlarının şübhəsi avtomobilin duracağa aparılmasına əsas ola bilərmi?*
- *Bu zaman protokol tərtib olunmadan avtomobili duracağa apara bilərlərmi?*

***Fəxri KƏRİMLİ,***
***Masazır qəsəbəsi***

✓ Qaldırdığınız məsələlərlə bağlı bildiririk ki, qeyd olunanlar Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsi və "Yol hərəkəti haqqında" Azərbaycan Respublikası Qanunu ilə tənzimlənir. "Yol hərəkəti haqqında" Azərbaycan Respublikası Qanununun 85-ci maddəsinə əsasən, nəqliyyat vasitəsində normativ tələblər pozulmaqla avadanlıq quraşdırıldıqda və ya dəyişdirildikdə, bu pozuntuları yerində aradan qaldırmaq mümkün olmadıqda fiziki şəxslər nəqliyyat vasitəsinin idarə olunmasından kənarlaşdırılır və həmin hallar aradan qaldırılanadək nəqliyyat vasitəsini saxlanılması üçün mühafizə olunan duracağa göndərilir. Göründüyü kimi, dövlət yol polisi nəqliyyat vasitəsinə edilmiş konstruksiya dəyişikliyini yerində müəyyənləşdirmək hüququna malikdir və həmin dəyişikliyin yerində aradan qaldırılması mümkün deyilsə, o zaman onu duracağa göndərir. Nasazlıqların siyahısı "Yol hərəkəti haqqında" qanunun 1 saylı əlavəsi ilə müəyyən olunur.

Nəqliyyat vasitələrinin hansı hallarda duracağa aparılması məsələsinə gəldikdə isə, qeyd olunmalıdır ki, İnzibati Xətalar Məcəlləsinin 97.1-ci maddəsinə görə, nəqliyyat vasitəsi onun sürücüsü tərəfindən həmin məcəllənin 346.1, 346.2 və 346.4-346.9-ü maddələrində qeyd olunan hallarda müvəqqəti olaraq mühafizə olunan duracaqda saxlanılır. Həmin halların sırasında dövlət yol polisinin avtonəqliyyat vasitəsinin sürücüsü barəsində şübhəsi əsası ilə həmin nəqliyyat vasitəsinin duracağa aparılması mövcud deyildir.

Eyni zamanda duracağa aparılan nəqliyyat vasitəsinin sürücüsü barədə "Yol hərəkəti haqqında" qanunun 85-ci maddəsinin tələbinə müvafiq olaraq aşkar edilmiş yol hərəkəti qaydalarının pozuntusu faktı üzrə inzibati xəta haqqında protokol tərtib edilməlidir. Həmçinin nəqliyyat vasitəsinin saxlanılması səbəbinin aradan qaldırıldığı barədə lazımi sənədlər təqdim edildikdən və ya inzibati xəta törətmiş şəxs barəsində inzibati xəta haqqında protokol tərtib edildikdən, nəqliyyat vasitəsinin duracağa gətirilməsi və onun orada saxlanılması üçün haqq ödənildikdən dərhal sonra saxlanılmış nəqliyyat vasitəsi sahibinə qaytarılır. Belə nəqliyyat vasitələrinin duracaqdan buraxılması üçün xüsusi icazə tələb olunmur. Nəqliyyat vasitəsi qanunsuz saxlanılmışdırsa və ya lazımi qaydada saxlanılmaması nəticəsində maddi zərər vurulmuşdursa, onun sahibi inzibati qaydada və məhkəməyə şikayət edə bilər.

**Sualları cavablandırdı:**
**Fərhad NƏCƏFOV,**
**Azərbaycan Respublikası Vəkillər Kollegiyasının üzvü**

# Təki ürək üşüməsin, mərhəmət donmasın



*Bazar günü etüdü*







***Fotolar İlham BABAYEVİNDİR***

*Ən böyük rəssam olan təbiətin yaratdığı mənzərələrdən zövq almaqdan doymuruq. Bu mənzərələrə baxdıqca baxır, zövq aldıqca alırıq. Bəzən də aldığımız təəssüratdan dərin-dərin, şirin-şirin xəyallara dalırıq. Gözəlliyə necə baxmayasan, ondan necə zövq almayasan, necə sonsuz xəyallara dalmayasan?! Axı insan gözəllik vurğunudur.*

*Təbiətin zövqümüzü oxşayan, qəlbimizə rahatlıq, ürəyimizə dinclik gətirən, könlümüzə sevinc ələyən mənzərələrindən biri də qarın yağmasıdır. Ələkdən unun səpələnməsinə bənzəyən bu mənzərəni sevməyən, bu gözəl səhnənin sehrinə düşməyən, tamaşasına çıxmayan, bu əsrarəngiz gözəlliyə baxmayan varmı? Təbii ki, yoxdur. Hamı könülləri tellləndirən, ürəklərə sevinc ələyən bu mənzərəyə böyük sevgi ilə tamaşa edir.*

*Çünki qəlblərə sərinlik qonur qar yağanda. Yavaş-yavaş üzümüz, gözümüz, sözümüz gülür qar yağanda. Dodaqlara təbəssüm qonur, əsəblər, gərginliklər, ağrı-acılar donur, ömür gəncləşir qar yağanda.*

*Həmişə harasa qaçan, uçan, tələsən ağlı-qaralı buludlar "ayaq saxlayır", sonra torpaq laxlayır ayağımızın altında qar yağanda. Bu zaman səma özü də gəlin kimi başdan-ayağa ağ örpəyə bürünür, həmişə tələsən zaman dayanır, elə bil yerlə göy birləşir, qoşalaşır, bizi qoynunda əzizləyib saxlayan dünyamız təmizlənir, ağarır.*

*Böyüklər də, uşaqlar da sevinir qar yağanda. Dağlar, dərələr, çöllər, hər yer ağ paltar geyinir, həyatın əbədi ritmi əvvəlkindən yaxşı döyünür, elə qar özü də öyünür. Dünya işığa, nura boyanır, sanki hava nəfəsini çəkib dayanır. Fikirlərimiz də, düşüncələrimiz də özümüzdən xəbərsiz gözlərini açıb oyanır bu zaman. Fikrin, düşüncənin də üzü gülür qar yağanda, buna görə asta-asta şeirə bükülür, ağ vərəqlər üzərinə tökülür.*

*Bəlkə də elə buna görə göy üzündən yer üzünə təbiət qar yağdırır. Yağdırır ki, qoy insanların üzü gülsün, dodaqlarında sözü gülsün, dünyaya sevinclə, sevgi ilə baxan sözü gülsün. Gözəl çöhrələrə sevinc düzülsün, dərdlər, ağrı-acılar bir-bir çözülsün və tez bir zamanda unudulsun.*

*Amma qar yağanda dağlar, dərələr, göz işlədikcə uzanıb gedən çöllər, düzlər az da olsa üşüyür. Buna çox da kədərlənmirik, fikir çəkmirik. Çünki bu ötüb-keçəndir. Yaz günəşi üfüqdən doğan kimi təbiət öz ahənginə, öz rənginə dönəcək. Qoy nə üşüyürsə, üşüsün, nə donursa, donsun. Təki heç vaxt və heç zaman könüllər üşüməsin, ürəklərdəki mərhəmət donmasın.*

***Vahid MƏHƏRRƏMOV,***
***"Azərbaycan"***

# Avtovağzal və avtostansiyalar gücləndirilmiş iş rejimində fəaliyyətini davam etdirir

**Ölkə ərazisində müşahidə edilən qeyri-sabit hava şəraiti ilə əlaqədar sərnişindaşımanı həyata keçirən bütün daşıyıcılar, avtovağzal və avtostansiyalar gücləndirilmiş iş rejimində fəaliyyətini davam etdirir.**

Azərbaycan Yerüstü Nəqliyyat Agentliyindən (AYNA) AZƏRTAC-a bildirilib ki, qarlı və şaxtalı hava şəraitinin olmasına baxmayaraq, avtobus sürücüləri vətəndaşlarımıza təhlükəsiz xidmət göstərmək üçün səylə çalışırlar. Dünən səhər saatlarından bütün marşrutlar üzrə xətlərə avtobuslar buraxılıb. AYNA-nın Monitorinq Mərkəzi tərəfindən yollarda avtobusların hərəkətinə nəzarət olunur. Aidiyyəti qurumlarla birgə yollar buzdan təmizləndikcə xətlərə cəlb edilən avtobusların sayı artırılır. Bəzi istiqamətlərdə, xüsusən də paytaxtın şəhərətrafı və qəsəbələrarası yollarının buzlaşması ilə əlaqədar avtobusların hərəkətində çətinliklər yaranıb. Sürət həddi mövcud şəraitə uyğun tənzimləndiyi üçün avtobuslararası intervallarda artım müşahidə edilə bilər. Sərnişinlərdən müvəqqəti çətinlikləri anlayışla qəbul etmələri, təhlükəsizlik qaydalarına riayət etmələri xahiş olunur.



Bölgələrdə də şəhərlərarası, şəhərdaxili və rayondaxili sərnişindaşıma adi rejimdə davam etdirilir. Təhlükəsizlik səbəbi ilə Bakı Beynəlxalq Avtovağzal Kompleksindən Gədəbəy, Qusar, Qəbələ və İsmayıllı istiqamətlərində reyslər təxirə salınıb. Bu istiqamətlərdə reyslərin bərpası haqqında ictimaiyyətə əlavə məlumat veriləcək.


BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Kompüter mərkəzi | - 538-20-87, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Mühasibatlıq | - 539-59-33 |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | | |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

az.reklam@mail.ru




www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

**Gündəlik rəsmi dövlət qəzeti**

Tiraj 3426
Sifariş 425

Qiyməti 60 qəpik